13 sentyabr 2024 №68 (2133) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Heydər Əliyev Fondunun Vatikanda Müqəddəs Yubiley İlinə töhfəsi

Vatikan şəhəri dövləti üzrə qubernatorluq ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında (Basilica of Saint Paul Outside the Walls) bərpa işlərinə dair müqavilə imzalanıb.



Sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa imzalayıblar.

səh. 2

## 2025-ci ilin büdcə layihələri müzakirə edilib

Sentyabrın 11-də Baş nazir Əli Əsədovun sədrliyi ilə Azərbaycan Respublikası İqtisadi Şurasının iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən bildirilib ki, iclasda 2025-ci və növbəti üç il üzrə dövlət və icmal büdcələrinin layihələri, mövcud iqtisadi vəziyyət və 2024–2028-ci illər üzrə yenilənmiş makroiqtisadi proqnozlar, 2025–2028-ci illərdə büdcə siyasətinin əsas istiqamətləri, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası ilə bağlı xərclərin maliyyələşdirilməsi və Böyük Qayıdış Proqramının təmin edilməsi, makroiqtisadi və maliyyə sabitliyi sahəsində cari vəziyyət və digər məsələlər müzakirə olunub.

İqtisadiyyat naziri Mikayıl Cabbarovun, maliyyə naziri Samir Şərifovun, Mərkəzi Bankın sədri Taleh Kazımovun, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin məruzələri dinlənilib.

İclasın yekununda İqtisadi Şura üzvlərinin rəy və təkliflərı nəzərə alınmaqla 2025-ci ilin büdcə zərfinə daxil olan bütün sənəd və məlumatların təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib. Büdcə zərfi layihələri Nazirlər Kabinetində baxıldıqdan sonra Azərbaycan Respublikasının Prezidentinə təqdim ediləcək.

## COP Sədrlikləri Üçlüyünün mədəniyyət nazirləri Sankt-Peterburqda görüşüblər

Sentyabrın 12-də Rusiyanın Sankt-Peterburq şəhərində COP28-ə ev sahibliyi etmiş Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ), COP29-un ev sahibi Azərbaycan Respublikasının və gələn il COP30-u qəbul edəcək Braziliyanın – COP Sədrlikləri Üçlüyü mədəniyyət nazirlərinin görüşü olub.

səh. 2

## X Bakı Beynəlxalq Kitab Sərgisi keçiriləcək

Paytaxtımız növbəti dəfə beynəlxalq kitab bayramına ev sahibliyi edəcək. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2009-cu ildən keçirilən Bakı Beynəlxalq Kitab Sərgisi bu il 10-cu dəfə kitabla bağlı və kitaba bağlı olan hər kəsi – naşirləri, yazarları, kitabın çapı, yayımı ilə məşğul olan təsisatları, kitabxanaları, bu sahədə aidiyyəti dövlət qurumlarını bir araya gətirəcək.

səh. 2

## Paytaxtımız səkkizinci dəfə Formula 1 yarışlarına ev sahibliyi edir

Sentyabrın 13-də Bakıda növbəti Formula 1 yarışları başlanır. Azərbaycan paytaxtı 8-ci dəfə dünyanın ən həyəcanlı avtomobil idmanı yarışına ev sahibliyi edir.



Qətər Dövlətinin hava yolları şirkəti – "Qatar Airways" ötən ildən F1-in yeni qlobal tərəfdaşıdır və yarışın Bakı mərhələsi də tam olaraq "Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi–2024" adlanır.

Bakı Şəhər Halqası (BŞH) rekord sayda azarkeşi qarşılamağa hazırdır. BŞH Əməliyyat Şirkətindən bildirilib ki, əvvəlki illərdən fərqli olaraq, azarkeşlər bu il Formula 1-in məşhur bütün əyləncəli aktivasiyalarını Dənizkənarı bulvar ərazisində görə biləcəklər. Ən populyar aktivasiyalardan biri "Pit Stop Challenge"dir. Burada azarkeşlər F1 bolidinin təkərlərini mümkün olan ən qısa zamanda dəyişməyə çalışırlar. Günün ən sürətli komandası mükafatlar, o cümlədən imzalı əşyalar və paddok turu qazanmaq şansı əldə edəcək.

Bulvar ərazisində yerləşən azarkeş zonasında Fan-forum da keçiriləcək. Səhnənin qarşısında təşkil olunan sessiyada dünyaşöhrətli F1 pilotları avtoidman həvəskarları ilə görüşəcək. Komandalar üçün ayrılmış vaxt ərzində azarkeşlər F1 ulduzlarına öz suallarını verib, onlardan avtoqraf almaq və şəkil çəkdirmək imkanı əldə edəcəklər.

davamı səh. 8-də

# "Səadət kamalla yetişər başa..."

### Qədim Gəncədə "Nizami günləri" keçirilir

11-15 sentyabr tarixlərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Gəncə şəhərində dünyaşöhrətli Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin (1141–1209) xatirəsinə həsr olunmuş "Nizami günləri" keçirilir.



Sentyabrın 11-də Nizami məqbərəsinin qarşısında layihənin açılış mərasimi olub.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, mədəniyyət xadimləri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən akademik Rafael Hüseynov Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında geniş söz açıb.

Gəncə Dövlət Milli Dram Teatrı aktyorlarının ifasında "Beş qapı" tamaşası ilk dəfə nümayiş olunub.

Əməkdar incəsənət xadimi Hafiz Quliyevin quruluş verdiyi tamaşanın libretto müəllifi Şahin Musaoğlu, bəstəkarı Tamilla Əhədovadır.

Dahi şairin rəngarəng ideyalar aləminə işıq salan yeni səhnə əsəri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Layihənin ilk günü konfrans da təşkil olunub.

Konfransı giriş sözü ilə açan akademik Rafael Hüseynov "Nizami günləri"nin əhəmiyyətini yüksək qiymətləndirib.

Sonra Rafael Hüseynovun "Nizami Gəncəvi ədəbi məktəbinin Şərq və Qərb ədəbi-mədəni təfəkküründə yeri", filologiya üzrə fəlsəfə doktoru İlahə Hacıyevanın "Anadilli "Xəmsə" ardıcılları: bütöv və fraqmentar cavablar", Əməkdar rəssam Elçin Hami Axundovun "Nizami şəxsiyyəti və irsinin animasiya həllinin






problemləri və "Xəmsə" süjetləri", filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarovun "Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi obrazı" mövzularında məruzələri dinlənilib.

Bildirək ki, "Nizami günləri" çərçivəsində böyük söz ustadının şeirlərindən ibarət qiraət axşamı, muğam və klassik romanslardan ibarət konsert proqramı, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı rəqs heyətinin konserti və Əfrasiyab Bədəlbəylinin "Nizami" operasının nümayişi olacaq.

## "XXI əsrin mədəniyyəti: suverenlik, yoxsa qlobalizm?"

### Sankt-Peterburq Mədəniyyət Forumunda ölkəmiz də təmsil olunur

11–14 sentyabr tarixlərində Rusiyanın Sankt-Peterburq şəhərində X Beynəlxalq Birləşmiş Mədəniyyətlər Forumu keçirilir. Forumda Azərbaycan da təmsil olunur.

"XXI əsrin mədəniyyəti: suverenlik, yoxsa qlobalizm?" mövzulu builki forumun tematik panellər, dəyirmi masalar, görüşlər, təqdimat və sərgilər, konsertlərdən ibarət zəngin proqramı var.

Forumun rəsmi açılışı sentyabrın 12-də olub. Mərasimdə Rusiya Prezidenti Vladimir Putin çıxış edib.

Həmin gün "XXI əsrdə musiqili teatr", "Mədəniyyətdə və milli suverenlikdə süni intellekt", "İnam ənənələri və mədəniyyəti. Gələcəyə gedən yol", "Avrasiya tərəfdaşlığına gedən yolda" və s. mövzularda panel toplantıları keçirilib.

"MDB ölkələrinin kinematoqrafiyası. Ümumi keçmiş, suveren indiki, çoxqütblü gələcək" mövzulu panelin çıxışçıları arasında Azərbaycan kinorejissor, Əməkdar incəsənət xadimi Ayaz Salayev də yer alıb. Kino ilə bağlı daha bir panel ("Film irsi: keçmişin və ya indinin mədəni kodu")




sentyabrın 13-də keçiriləcək.

"MDB ölkələri – yaxınlaşma yolları" panelində teatr sənəti müstəvisində inteqrasiya imkanları nəzərdən keçirilib. Paneldə Azərbaycan mədəniyyət nazirinin müşaviri Əməkdar artist Oleq Əmirbəyov da iştirak edib.

"Tarixi binalarda muzeylər. Mədəni irsin qorunub saxlanılması və milli kimliyin formalaşması mexanizmi" mövzusunda paneldə Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikova iştirak edib.

Sentyabrın 13-də keçiriləcək "İrs hüququ: sivilizasiyaların dialoqu" mövzulu panel diskussiyasında isə Azərbaycandan AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev çıxışçılar siyahısındadır.

Forumun son günü – 14 sentyabrda Ermitaj Mükafatının ikinci təqdimatı olacaq. Mükafat Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunun təşkilat komitəsi və Dövlət Ermitaj Muzeyi tərəfindən 2023-cü ildə təsis edilib. Mükafat Rusiyadan və xaricdən iki aparıcı mədəniyyət xadiminə mədəniyyət və incəsənət, beynəlxalq mədəni dialoqun gücləndirilməsi sahəsində nailiyyətlərinə görə verilir. Builki mükafatçılardan biri Azərbaycanın Rusiya Federasiyasındakı səfiri, Xalq artisti Polad Bülbüloğludur.

## Türkiyə-Azərbaycan qardaşlığının tarixi əsəri

### Bakının qurtuluşundan 106 il ötür...

Sentyabrın 15-də Azərbaycan tarixinin şanlı səhifələrinin – Bakı şəhərinin "Sentrokaspi diktaturası" və daşnak tör-töküntülərindən təmizlənməsinin, Azərbaycan Xalq Cümhuriyyətinin öz paytaxtına qovuşmasının ildönümüdür.

1918-ci ilin 15 sentyabrında Nuru paşanın komandanlığı altında Azərbaycan-türk (Osmanlı) hərbi qüvvələrinin – Qafqaz İslam Ordusunun Bakını işğaldan azad etməsi Azərbaycan və Türkiyə qardaşlığının tarix durduqca yaşayacaq möhtəşəm bir salnaməsidir...

28 may 1918-ci ildə istiqlaliyyətini elan edən Azərbaycana ilk dəstək qardaş ölkədən gəldi. Cümhuriyyətimiz Tiflisdə, Zaqafqaziya Seyminin dağılmasından sonra Azərbaycan Milli Şurası tərəfindən elan edilmişdi. Bakı Şaumyanın başçılıq etdiyi bolşevik-daşnakların (Bakı Kommunası) əlində idi və həlelik milli hökumətin nəinki Bakıya, hətta Tiflisə yaxın olan Gəncəyə köçməsi belə problemli idi. Ümid ancaq Türkiyədən gələcək köməyə idi.



1918-ci il iyunun 4-də Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında "Daimi sülh və dostluq münasibətləri haqqında" saziş imzalandı. Osmanlının hərbi naziri Ənvər paşa qardaşı Nuru paşanın komandanlığı altında ordu hissəsini Azərbaycana köməyə göndərdi. Diviziya Gümrü-Dilican-Ağstafa yolunu keçərək Gəncəyə gəldi. Əhali qardaş ordunu sevinclə qarşıladı.

davamı səh. 2-də




"Ledi Maqbet" Milli Dram Teatrının səhnəsinə çıxacaq

səh. 5



Sənət əfsanəsi – Arif Məlikov

səh. 5

# Heydər Əliyev Fondunun Vatikanda Müqəddəs Yubiley İlinə töhfəsi

## Müqəddəs Pavel Bazilikasında bərpa işləri aparılacaq



Vatikan şəhəri dövləti üzrə qubernatorluq ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında (Basilica of Saint Paul Outside the Walls) bərpa işlərinə dair müqavilə imzalanıb.

Sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa imzalayıblar.

Vatikana səfər çərçivəsində kardinal Fernando Vergez Alzaqa və bir sıra digər rəsmi şəxslər ilə görüş keçirilib.

Görüşdə Azərbaycanla Müqəddəs Taxt-Tac arasında əlaqələr, Heydər Əliyev Fondu ilə birgə layihələr müzakirə olunub.

Qeyd edək ki, ötən illərdə Heydər Əliyev Fondu Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin bərpasına, mədəni irsin qorunması sahəsində işlərə öz töhfəsini verib.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti Müqəddəs Pavel Bazilikasını ziyarət edib.

Müqəddəs Pavel Bazilikası Vatikanın ən böyük abidələrindəndir və 1980-ci ildən UNESCO-nun Dünya İrs Siyahısına daxildir. 2025-ci ildə Vatikanda hər 25 ildən bir təşkil olunan Müqəddəs Yubiley İli çərçivəsində 30 milyondan çox katolik zəvvarın bu kilsəni ziyarət etməsi gözlənilir. Bərpa işləri, ilk növbədə, Müqəddəs Yubiley İli zamanı ziyarətçilərin bu dini ocağa təhlükəsiz girişinin təmin edilməsi məqsədilə aparılır.

# Bakı Beynəlxalq Kitab Sərgisi 10-cu dəfə keçiriləcək

## Bu il sərgi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunub

Paytaxtımız növbəti dəfə beynəlxalq kitab bayramına ev sahibliyi edəcək. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2009-cu ildən keçirilən Bakı Beynəlxalq Kitab Sərgisi bu il 10-cu dəfə kitabla bağlı və kitaba bağlı olan hər kəsi – naşirləri, yazarları, kitabın çapı, yayımı ilə məşğul olan təsisatları, kitabxanaları, bu sahədə aidiyyəti dövlət qurumlarını bir araya gətirəcək.



Cənubi Qafqazda bu sahədə ən böyük tədbir sayılan Bakı Beynəlxalq Kitab Sərgisi ötən müddətdə mütaliə mədəniyyətinin təşviqi, yazıçılar və oxucular arasında görüşlər üçün maraqlı platformaya çevrilib. Sərgi yazarlarla nəşriyyatların işgüzar münasibətlərinin qurulması, kitab biznesinin inkişafı, müasir ədəbiyyatın və xüsusilə gənc müəlliflərin təbliğatına öz töhfəsini verir.

2–8 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək builki sərgi dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494–1556) 530 illiyinə həsr olunub.

Bu il də sərgidə bir sıra ölkələrdən müvafiq sahənin nümayəndələri iştirak edəcək. Sərgi günlərində yazarların imza mərasimləri, təqdimat və müxtəlif səpkili tədbirlər təşkil olunacaq.

***

X Bakı Beynəlxalq Kitab Sərgisində öz stendi ilə təmsil olunacaq Azərbaycan Milli Kitabxanası da maraqlı tədbirlər keçirməyi planlaşdırır. Kitabxana bu il ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" və Şuşanın "İslam dünyasının mədəniyyət paytaxtı" missiyasını daşıması ilə bağlı sərgilər təşkil edəcək. Eyni zamanda əlamətdar il münasibətilə nəşr olunan biblioqrafiya və iqlim dəyişikliyi mövzusunda elektron məlumat bazasının təqdimatları olacaq.

Məhəmməd Füzulinin 530 illik yubileyi ilə bağlı ekspozisiyanın və "Məhəmməd Füzuli – 530" adlı biblioqrafik nəşrin də təqdimatı nəzərdə tutulub.

Beynəlxalq sərgi çərçivəsində, həmçinin Azərbaycan Milli Kitabxanasında Macarıstan Milli Seçeni Kitabxanasının daimi guşəsinin açılması, Gürcüstan Milli Parlament Kitabxanası, Mərakeş Milli Kitabxanası ilə Azərbaycan Milli Kitabxanası arasında memorandumların imzalanması gözlənilir.

**Lalə**

# Türk dünyasının ortaq əlifbası 34 hərfdən ibarət ola bilər

Xəbər verdiyimiz kimi, 9-10 sentyabr tarixlərində Bakıda Türk Dünyası Ortaq Əlifba Komissiyasının üçüncü iclası keçirilib. İclasın əsas məqsədi Türk dünyası ortaq əlifbası hərfləri ilə bağlı müzakirələri yekunlaşdırmaq olub.

Qeyd edək ki, Türk Dünyası Ortaq Əlifba Komissiyası iki il əvvəl Türk Dövlətləri Təşkilatı (TDT) tərəfindən yaradılıb.

Bakıdakı iclasa qədər 24 hərf üzərində işin başa çatdırıldığı qeyd olunurdu. Komissiyanın üçüncü toplantısında daha 10 hərf razılaşdırılıb. Bu barədə iclasın təşkilatçılarından olan Türk Akademiyasından (Astanada yerləşir) bildirilib.

Qeyd olunur ki, TDT-yə üzv ölkələrdən ibarət Türk Dünyası Birgə Əlifba Komissiyasının üçüncü iclasında komissiyanın ikiillik fəaliyyət təcrübəsindən yararlanaraq türk dilləri üçün əlifba layihəsi elan edilib. 34 hərfdən ibarət ortaq əlifba təklifi ilə bağlı razılıq əldə olunub.

İndi qalır alimlər səviyyəsində razılaşdırılan əlifba ilə bağlı rəsmi müstəvidə hansı qərarların veriləcəyini və onun necə tətbiq ediləcəyini gözləmək.

# COP Sədrlikləri Üçlüyünün mədəniyyət nazirləri Sankt-Peterburqda bir araya gəliblər

Sentyabrın 12-də Rusiyanın Sankt-Peterburq şəhərində COP28-ə ev sahibliyi etmiş Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ), COP29-un ev sahibi Azərbaycan Respublikasının və gələn il COP30-u qəbul edəcək Braziliyanın – COP Sədrlikləri Üçlüyü mədəniyyət nazirlərinin görüşü olub.



Nazirlər Sankt-Peterburq şəhərində keçirilən BRICS ölkələrinin mədəniyyət festivalı çərçivəsində bir araya gəliblər. Festivalda bu yaxınlarda BRICS formatına qoşulmaq üçün müraciət etmiş Azərbaycan da təmsil olunur.

Üçtərəfli görüş bu ilin noyabr ayında COP29 çərçivəsində keçiriləcək mədəniyyət nazirlərinin İkinci Yüksək Səviyyəli Görüşünün proqram və formatını müəyyən etmək məqsədilə keçirilib.

Görüşdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, BƏƏ-nin mədəniyyət naziri Səlim bin Xalid əl-Qassimi və Braziliyanın mədəniyyət naziri Marqaret Menezes iştirak ediblər.

Qeyd edək ki, Şarm Əl-Şeyxdə (Misir) keçirilmiş COP27-dən başlayaraq beynəlxalq gündəlikdə mədəniyyətin iqlim fəaliyyətindəki rolu aktuallıq qazanmağa başlayıb. Ötən il Dubayda keçirilən COP28 zamanı "Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Bəyannamə" qəbul olunub. Bu çərçivədə 30-dan çox nazir və hökumət nümayəndəsini, həmçinin beynəlxalq təşkilatların rəhbər və nümayəndələrini bir araya gətirərək mədəniyyətin transformativ iqlim fəaliyyətindəki rolunu əhatə edən mədəniyyət nazirlərinin Birinci Yüksək Səviyyəli Görüşü keçirilib.

Azərbaycan da öz növbəsində bu məsələni xüsusi diqqətdə saxlayır və qlobal səviyyədə müzakirə olunması istiqamətində davamlı işlər aparmaqdadır. 2024-cü ilin 1–3 may tarixlərində Bakıda keçirilən VI Dünya Mədəniyyətlərarası Dialoq Forumu zamanı iqlim və irs üzrə ekspertlərin iştirakı ilə xüsusi plenar sessiyanın təşkil edilməsi də buna nümunədir.

Görüşdə BƏƏ və Braziliya nazirləri Azərbaycan tərəfinə bu məsələləri daima diqqətdə saxladığına və beynəlxalq müstəvidə təbliğ etdiyinə görə təşəkkürlərini bildiriblər.

COP29-un hazırlıq işləri ilə də tanış olan hər iki ölkənin mədəniyyət nazirləri hazırlıq işlərini yüksək qiymətləndirib və Bakıda keçiriləcək COP29-un ən yaddaqalan tədbir olacağına əmin olduqlarını ifadə ediblər.

Görüş zamanı nazirlər COP29 çərçivəsində keçirilməsi nəzərdə tutulan əlavə tədbir, təşəbbüs, o cümlədən konsert və şou-proqramlar barədə də fikir mübadiləsi aparıblar.

# "Qızıl minbər"in baş mükafatı "Əbədi qar əfsanəsi"nə qismət olub

Sentyabrın 11-də "Qızıl minbər" XX Kazan Beynəlxalq Kino Festivalı başa çatıb. Qaliaskar Kamal adına Tatarıstan Dram Teatrında keçirilən bağlanış mərasimində qaliblərin adları açıqlanıb.



"Ən yaxşı tammetrajlı film" üçün Qran-pri rejissor Aleksey Romanovun çəkdiyi "Əbədi qar əfsanəsi" (Rusiya, Saxa Respublikası) filminə verilib.

Salavat Yuzeyevin "Sevgililər dağı" filmi (Tatarıstan, RF) iki nominasiyada – "Tammetrajlı bədii filmdə ən yaxşı rejissor işi" və "Tammetrajlı bədii filmin ssenarisinə görə" nominasiyalarında qalib gəlib.

Münsiflər heyəti Sepida Ərmanı ("Ceyranlar", İran) "Tammetrajlı filmin ən yaxşı aktrisası", Ulmas Oravyevi ("Təkamül", Özbəkistan) isə "Bədii filmdə ən yaxşı aktyor" olaraq fərqləndirib.

"Ən yaxşı animasiya filmi" nominasiyasında rejissor Ramek Amin Kazeminin "Kağız güllər" (İran) filmi qalib elan edilib.

"Şərəf" filmi (rejissor Rafael Mukayev, Qaraçay-Çərkəz Respublikası, RF) isə "Ən yaxşı qısametrajlı bədii film" nominasiyasında birinci olub.

Seneqallı rejissor Musa Turenin "20 ildən sonra" lenti "Ən yaxşı sənədli film" seçilib.

Rejissor Gülnaz Qalimullinanın "Monisto" filmi "Milli müsabiqənin ən yaxşı filmi" olub.

Tatarıstan rəhbərinin kino sənətində humanizmə görə xüsusi mükafatı və 500 min rubl (təxminən 9300 manat) "Lal ququ quşu" filminə görə yerli rejissor Rauf Kubayevə (Tatarıstan) verilib.

Qeyd edək ki, 6-11 sentyabr tarixlərində keçirilən XX Kazan Beynəlxalq Kino Festivalında ümumilikdə 141 film nümayiş olunub ki, onlardan 51 lent müsabiqə proqramında (40-ı beynəlxalq, 11-i milli müsabiqə) yarışıb. Münsiflər heyətinə Türkiyədən "Diriliş: Ərtoğrul" və "Quruluş: Osman" seriallarının quruluşçu rejissoru Mətin Gürey başçılıq edib.

**Gülcahan**

# AMEA-da kərküklü alimlərlə görüş

Sentyabrın 12-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik İsa Həbibbəyli kərküklü alimlərlə görüşüb.



Kərkükün və türkmanların Azərbaycan üçün böyük mənəvi önəm kəsb etdiyini deyən akademik AMEA-da Azərbaycan-Kərkük ədəbi əlaqələri istiqamətində, türkman ədəbiyyatının, folklorunun və s. öyrənilməsinə dair tədqiqatların aparıldığını diqqətə çatdırıb.

İlk dəfə 1994-cü ildə Məhəmməd Füzulinin 500 illiyi münasibətilə Azərbaycan nümayəndə heyətinin tərkibində Kərkükə səfər etdiyini deyən İsa Həbibbəyli bildirib ki, qarşılıqlı əlaqələrin qurulması və inkişafında görkəmli kərkük ədəbiyyatşünası Əta Tərzibaşının və azərbaycanlı professor Qəzənfər Paşayevin xüsusi xidmətləri var. Bu il AMEA-da Əta Tərzibaşının 100 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi konfrans keçirilib və kərküklü tədqiqatçı-yazıçı Şəmsəddin Kuzəçinin təşkilatçılığı ilə Kərkükdən tanınmış alim və tədqiqatçılar həmin tədbirdə iştirak ediblər. Konfrans iştirakçıları vasitəsilə Kərkükə Azərbaycanın dili, tarixi, ədəbiyyatı, folkloru, mədəniyyəti ilə bağlı kitablar göndərilib.

AMEA rəhbəri, həmçinin Azərbaycan alimlərinin oktyabr ayında İraqda Məhəmməd Füzulinin 530 illik yubileyi münasibətilə beynəlxalq konfransda iştirak edəcəklərini və səfər zamanı növbəti kitabların Kərkük Universitetinə hədiyyə ediləcəyini söyləyib.

Kərkük Universitetinin əməkdaşı, Türkməneli Alimlər Dərnəyinin sədri Nebil Şahin Məhəmməd AMEA-da olmaqdan məmnunluğunu ifadə edib. Alim 17 ildir Kərkük Universitetində çalışdığını, Türkiyədə magistratura, Şotlandiyada isə doktorantura təhsili aldığını diqqətə çatdırıb. O, rəhbərlik etdiyi təşkilata Azərbaycanın İraqdakı səfirliyi tərəfindən daim onların fəaliyyətinə dəstək göstərildiyini söyləyib.

Kərküklü alimin doktorantura təhsili, birgə konfransların təşkili, qarşılıqlı məqalələrin çapı, alimlərin əsərlərinə istinad edilməsi kimi təklifləri razılıqla qarşılanıb.

Kərküklü tədqiqatçı Əli Hüseyn Bayatlı və Mosul Şimali Texniki Universitetinin nəzdində Kərkük Texniki İnstitutunun əməkdaşı Savaş Hürmüzlü də elmi fəaliyyətləri barədə məlumat veriblər.

# Türkiyə-Azərbaycan qardaşlığının tarixi əsəri

## Bakının qurtuluşundan 106 il ötür...



*əvvəli səh. 1-də*

İyunun 16-da milli hökumət Tiflisdən Gəncəyə köçdü. Milli hakimiyyəti bütün ölkə ərazisində bərqərar etmək üçün əsgəri yardım zəruri idi. Osmanlı diviziyası və Xalq Cümhuriyyətinin hərbi nazirinin müavini general Əliağa Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu əsasında Qafqaz İslam Ordusu təşkil edildi. Nuru paşanın rəhbərlik etdiyi bu orduya 18 min əsgər və zabit daxil idi.

Qafqaz İslam Ordusunun zəfər yürüşü iyul ayında başlandı. İyulun 20-də Şamaxı şəhəri azad edildi. İyulun sonunda Şaumyanın rəhbərlik etdiyi "Bakı Kommunası" istefa verməyə məcbur oldu, düşmən qiyafəsini dəyişdi və 1918-ci il avqustun 1-də Bakıda eser, menşevik və daşnaklardan ibarət "Sentrokaspi diktaturası" yaradıldı. Bakını əldən vermək istəməyən mürtəce qurum ingilis qoşunlarını köməyə çağırdı. Lakin bu, onları xilas edə bilmədi.

1918-ci il sentyabrın 15-də xilaskar ordu Bakıya daxil oldu. Qafqaz İslam Ordusu Bakını Cümhuriyyətə qovuşdurdu. Gəncə, Göyçay, Ağsu, Kürdəmir, Şamaxı ətrafındakı döyüşlərdən keçən zəfər yolu Bakının küçələrində müzəffər paradla tamamlandı. Sentyabrın 17-də milli hökumət Bakıya köçdü, Bakı paytaxt adını və mahiyyətini özünə qaytardı...

Lakin qardaş ölkənin xilaskar ordusu Azərbaycanda çox qala bilmədi. 1918-ci il oktyabrın 30-da Türkiyə ilə Antanta dövlətləri arasında bağlanan Mudros müqaviləsinə görə məğlub sayılan Osmanlı qüvvələri Bakını tərk etməli idilər...

Amma bu qısa müddət ərzində türk hərbi kontingenti Azərbaycanın istiqlalı uğrunda əlindən gələni etmiş, Bakıya zəfər yürüşündən sonra Azərbaycanın şimal bölgələrində, həmçinin Qarabağda apardığı savaşlarda şəhidlər vermişdi.

Ümumilikdə 1918-ci il iyun-oktyabr aylarında Azərbaycanın istiqlalı və suverenliyi uğrunda döyüşlərdə 4 min əsgər və zabit şəhid olmuşdu. Onların 1130 nəfəri türk əsgəri idi...

Sovet tarixi onilliklər boyu bu şanlı salnaməni bizə unutdurmağa çalışdı. Amma tarix gec-tez hər şeyi öz yerinə qoyur. Qan yaddaşından silinməyən 1918-ci il 15 Sentyabrı – Türkiyə-Azərbaycan qardaşlığının əsəri də müstəqillik tariximizdə haqq etdiyi yerini tutdu.

1999-cu il sentyabrın 15-də Bakının Şəhidlər xiyabanındakı məzarların yanında bir abidə ucaldıldı. 1918-ci ildə Gəncədən Bakıyadək uzanmış savaş yolu boyunca türk əsgərlərinin gömüldüyü adsız məzarlıqlar üzərində belə xatirə abidələri ucaldılıb. Ay-ulduzlu bayraqlarımızın kölgə saldığı bu qranit abidələr heç vaxt sarsılmayacaq Türkiyə-Azərbaycan qardaşlığının simvolu kimi gələcək nəsillərə tarixdən dərs verəcək daş kitabələrdir...

# Dostluq və qardaşlıq rəmzi

## Kahramanmaraşda Heydər Əliyev adına məktəbin açılışı

Məlum olduğu kimi, 2023-cü ilin fevralında dağıdıcı zəlzələlərdən zərər çəkmiş Türkiyənin Kahramanmaraş şəhərində Azərbaycan dövlətinin maliyyə yardımı ilə yaşayış massivi inşa edilib.

Sentyabrın 11-də burada Heydər Əliyev adına ibtidai məktəbin rəsmi açılış mərasimi olub.

Tikintisi davam edən "Azərbaycan" məhəlləsində yerləşən təhsil müəssisəsinin açılışında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Türkiyənin milli təhsil naziri Yusuf Tekin iştirak ediblər.

Şagirdlər qonaqları Azərbaycan-Türkiyə qardaşlığını tərənnüm edən şeir və milli rəqslə salamlayıblar.

Tədbirdə çıxış edən Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, Azərbaycan ilə Türkiyənin qardaşlığı öz əksini konkret layihələrdə və proqramlarda tapır: "Ümidvaram ki, bu məktəb tezliklə Azərbaycanın məktəblərindən biri ilə qardaşlaşacaq, türkiyəli və azərbaycanlı şagirdlər və pedaqoqlar isə qarşılıqlı səfərlər edəcəklər".

Emin Əmrullayev iki qardaş ölkə arasında təhsil sahəsində əməkdaşlıq tarixində daha bir mühüm hadisəyə – Bakıda Azərbaycan-Türkiyə Universitetinin açılmasına diqqət çəkib. Xatırladıb ki, Bakıda bu təhsil layihəsi Türkiyənin üç universiteti və Azərbaycan universitetlərindən birinin birgə əməkdaşlığı ilə həyata keçirilib. O, həmçinin Xankəndidə Qarabağ Universitetinin yaradılmasını qeyd edərək deyib: "Əminəm ki, Qarabağ Universiteti bütün Türk dünyasının daha bir təhsil mərkəzinə çevriləcək".




Şagirdləri yeni tədris ili münasibətilə təbrik edən nazir bildirib ki, gənc nəslin vətənpərvərlik və Azərbaycan ilə Türkiyə arasında sarsılmaz dostluq ruhunda tərbiyə olunması üçün bütün səylər səfərbər edilməlidir.

Qeyd edək ki, təbii fəlakət zonasında məktəbin tikintisi Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) xətti ilə həyata keçirilib.

Türkiyənin milli təhsil naziri Yusuf Tekin çıxışında Azərbaycan dövlətinə, qardaş ölkənin hər bir sakininə minnətdarlığını ifadə edərək təbii fəlakət zonasındakı bütün təhsil müəssisələrinin tezliklə işini tam şəkildə bərpa edəcəyinə əminliyini bildirib.

Mərasimdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov və Kahramanmaraş vilayətinin rəhbər şəxsləri də çıxış ediblər.

Sonra nazirlər uşaqlarla birlikdə Heydər Əliyev adına ibtidai məktəbin rəmzi açılışını bildirən




lenti kəsib. Ümummilli lider Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsi önünə gül dəstələri qoyulub.

Məktəb binasına baxış keçirilib, xatirə şəkli çəkdirilib.

Təhsil ocağının üçmərtəbəli binasında 24 sinif otağı var. Məktəbdə ibtidai siniflərdə dərslərlə yanaşı, hazırlıq şöbəsində məşğələlər üçün otaqlar da ayrılıb. Məktəb tədris prosesi üçün lazım olan bütün avadanlıqla təchiz edilib, idman zalı, kitabxana yeməkxana, basketbol, həmçinin, balacalar üçün oyun meydançaları yaradılıb.

Qeyd edək ki, Kahramanmaraşda sosial və yaşayış obyektlərinin tikinti layihəsi çərçivəsində Azərbaycan Hökumətinin təmsilçisi qismində Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) çıxış edir. Buradakı "Azərbaycan" yaşayış massivinin ümumi sahəsi 32 hektardır. Yaşayış massivinin 11-ci və 12-ci məhəllələrində inşaat prosesi başa çatdırılıb, 7-ci və 8-ci məhəllələrin yerində yaşayış binalarının tikintisi davam etdirilir.

Bütövlükdə layihə çərçivəsində 2, 3 və 4 otaqlı 1300-dən çox mənzildən ibarət 71 evin tikintisi nəzərdə tutulub.

# "Fərqlilik yaradanlar" – COP29 ilə bağlı yeni kampaniya

Bu ilin 11–22 noyabr tarixlərində Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası – COP29 ilə bağlı daha bir kampaniyaya start verilib.

Bu barədə BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai məlumat verib.

"Fərqlilik yaradanlar" adlı qlobal kampaniya iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində yenilikçi ideyaları olan müxtəlif regionalardan fərdlərin və novatorların həyata keçirdiyi layihələri və fəaliyyətləri işıqlandırmaq məqsədi daşıyır.

Kampaniya çərçivəsində sosial sahibkarların, icma nümayəndələrinin və startap ideyaları olan fərdlərin layihələri seçilərək müxtəlif platformalarda nümayiş etdiriləcək.

Kampaniyanın məqsədi hər bir fərdin ətraf mühitə müsbət təsir edəcək fəaliyyət göstərmək iqtidarında olduğunu göstərmək, hər kəsi iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulmağa çağırmaq və ruhlandırmaqdır.

Seçiləcək layihələr həm onlayn platformalarda, həm də Azərbaycanda keçiriləcək COP29 zamanı "Fərqlilik yaradanlar" sərgisi çərçivəsində təqdim olunacaq.

Kampaniyanın əhatəli, inklüziv və əlçatan olmasını təmin etmək üçün linkedin, instaqram, tiktok və "X" sosial şəbəkələrindən istifadə olunacaq. "Arzu edən hər kəs öz icmasında, şəhərində və ya şirkətində iqlim həlləri üzrə həyata keçirdikləri təşəbbüslərin "əvvəl və sonrakı" mərhələlərini əks etdirən fotoşəkilləri və ya videoları #COP29ImpactMakers həştəqi ilə bölüşərək layihələrini necə başladıqlarını və hazırda necə davam etdiklərini paylaşa bilər", – deyə Nigar Arpadarai bildirib.

Sentyabrın 23-də Nyu-York şəhərində BMT İqlim Həftəsi çərçivəsində "Fərqlilik yaradanlar" kampaniyası ilə bağlı təqdimat olacaq.

# Cırtdan və Nino: Gənc Tamaşaçılar Teatrında yeni səhnə əsəri hazırlanır

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında Pərvin Nurəliyevanın "Cırtdan" xalq nağılının motivləri əsasında yazdığı "Cırtdanino" pyesinin oxunuş məşqlərinə başlanılıb.

Birhissəli səhnə əsərinin quruluşçu rejissoru Elşad Rəhimzadə, quruluşçu rəssamı Nisə Həsənova, musiqi tərtibatçısı Aygül Quliyeva, rejissor assistenti Sona Məhərrəmovadır. Tamaşanın plastik həlli Ceyhun Dadaşova aiddir.

Tamaşada Əməkdar artistlər Şəfəq Əliyeva, Mehriban Abdullayeva, Elnur Hüseynov, aktyorlar Hilal Dəmirov, Hüseyn Bayramov, Xaliq Bəkirov, Mətləb Abuşov, Anar Seyfullayev, Elgün Yəhyayev, Zümrüd Quliyeva, Aydan Həsənzadə, Ramil Məmmədov, Mehriban Hüseynova, Kərəm Hadızadə, Hökümə Rəhimzadə, Aydın Dəmirov, Müşfiq Əliyev, İlhan Sadıqov, Anar Səfiyev, Araz Pirimov, Mirzəağa Mirzəyev, Ümman Budaqov rol alıblar.

Balaca tamaşaçılar Cırtdan və nağılın digər qəhrəmanlarından



başqa, yad planetlərdən gəlmiş Nino adlı robotla da tanış olacaqlar. Nino Cırtdanı və onun dostlarını Yer planetindən başqa planetlərə səyahətə aparacaq, fərqli dünyalarla tanış edəcək. Vaxtilə uşaqların etdikləri dəcəlliklər səyahətə getdikləri planetlərdə müxtəlif forma və hadisələrlə onların qarşısına çıxacaq.

# Azərbaycanda nəşr edilən nadir kitablar Ufada sərgilənəcək

Sentyabrın 17-dən 19-dək Başqırdıstanın Ufa şəhərində (RF) MDB-nin iştirakçısı olan dövlətlərin yaradıcı və elmi ziyalılarının XVII Forumu keçiriləcək.

Forum çərçivəsində "MDB xalqlarının mədəni irsi" adlı sərgi təqdim ediləcək.

MDB İcraiyyə Komitəsinin saytında yer alan xəbərə görə, sərgidə kitabxana fondlarından MDB xalqlarının tarixi və mədəniyyətinə həsr olunmuş ən yaxşı və məzmunlu kitablar təqdim olunacaq.

Onların arasında XX əsrin əvvəllərində Azərbaycanda nəşr olunmuş nadir kitablar da var. Sərgi ziyarətçiləri "Koblandı-Batır" qazax xalq qəhrəmanlıq dastanı, "Sayatla Həmra" türkmən məhəbbət dastanı, "Manas" qırğız xalq dastanı, eləcə də, rus, başqırd və tatar dillərində nəşr edilmiş qazax, qırğız, özbək, tacik müəlliflərinin kitabları ilə də tanış ola biləcəklər. Sərgidə folklor, yaradıcılıq və milli geyimlərə həsr olunmuş kitablar da nümayiş olunacaq.

Tədbirin məqsədi ümumi mədəni səriştənin formalaşdırılması, MDB ölkələri xalqlarının ədəbiyyat dünyasına yiyələnmə, mütaliə mədəniyyətinin və xalqlar dostluğunun təbliğidir.

MDB-nin iştirakçısı olan ölkələrin yaradıcı və elmi ziyalıları Forumunun təşkilatçıları Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu və Başqırdıstan Respublikası Hökumətidir.

# Ölkəmizin işgüzar turizm imkanları Moskvada tanıdılıb

Azərbaycan Turizm Bürosunun iştirakı ilə sentyabrın 11-də Moskva şəhərində keçirilən "MICE4U" tədbirində ölkəmizin işgüzar turizm potensialı tanıdılıb.




Dövlət Turizm Agentliyindən bildirilib ki, tədbirdə iştirakın əsas məqsədi Azərbaycanın qabaqcıl işgüzar tədbirlər destinasiyası kimi mövcud imkanlarını qlobal müstəvidə nümayiş etdirmək, potensial tədbirləri və tərəfdaşları müəyyənləşdirmək, həmçinin təbliğat fəaliyyətini genişləndirməkdir.

Rusiyanın işgüzar turizm sahəsi üzrə aparıcı mütəxəssis və agentlikləri ilə keçirilən B2B formatlı görüşlərdə işgüzar tədbirlərin təşkili üzrə mövcud infrastruktur və bütövlükdə ölkəmizin turizm potensialı haqqında məlumat verilib.

Qeyd edək ki, 2024-cü ilin yanvar-avqust aylarında Rusiyadan Azərbaycana 501 min nəfər səfər edib. Bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 18 faiz artım deməkdir.

# Rusiyalı qonaqlar Milli Kitabxanada olublar

Xalqların Mənəvi Birliyi Beynəlxalq Fondunun (Moskva) prezidenti professor Valeri Alekseyev, Rusiyanın Azərbaycandakı Səfirliyinin birinci katibi Pavel Kuznetsov Azərbaycan Milli Kitabxanasında olublar.

Qonaqları salamlayan Milli Kitabxananın direktoru professor Kərim Tahirov Azərbaycan-Rusiya əlaqələrinin digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də uğurla inkişaf etdiyini bildirib. Direktor zəngin rusdilli ədəbiyyata malik Azərbaycan Milli Kitabxanasının Rusiya Milli Kitabxanası, Rusiya Dövlət Kitabxanası, M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanası və digər kitabxanalarla sıx əlaqələrinin olduğunu, kitab və təcrübə mübadiləsinin həyata keçirildiyini, təşkil edilən tədbirlərdə, sərgilərdə qarşılıqlı iştirakın təmin olunduğunu diqqətə çatdırıb.



Professor Valeri Alekseyev görüş üçün Kərim Tahirova təşəkkür edib. Biliklərin ötürülməsi vasitəsi kimi kitabın əhəmiyyətindən danışan qonaq bildirib ki, rəhbərlik etdiyi fond 30 ildir fəaliyyət göstərir. Fondun nəşriyyatı müxtəlif mükafatlara layiq görülüb. O, 12 cilddən ibarət "Rus klassik yazıçıları və pravoslavlığı" tematik seriyası haqqında məlumat verib. Qeyd olunub ki, 2003-cü ildən fond tərəfindən kütləvi tirajla nəşr olunan kitab seriyası F.Dostoyevski, N.Qoqol, F.Tyutçev, İ.Krılov, A.Puşkin, A.Axmatova, N.Rubtsov, M.Lermontov, S.Yesenin, V.Şukşin, V.Şoloxov və M.Lomonosovun yaradıcılığını əhatə edir.

Valeri Alekseyev əlavə edib ki, 2023-cü ilin MDB-yə üzv ölkələrdə "Rus dili ili" elan olunması ilə bağlı fond həmin ölkələrdə bu kitab kolleksiyasının ictimaiyyətin, tanınmış ədəbiyyat, mədəniyyət nümayəndələrinin, ali məktəb müəllimlərinin və s. iştirakı ilə təqdimatı və kitabxanalara hədiyyə edilməsi təşəbbüsü ilə çıxış edib. Qırğızıstan, Tacikistan, Özbəkistan və Belarusda keçirilmiş təqdimatlar zamanı 7 mindən çox kitab kitabxanalara hədiyyə edilib. A.Puşkinin 225 illik yubiley tədbirləri çərçivəsində bu ilin oktyabrında Bakıda da belə bir təqdimatın keçirilməsini arzuladığını deyən V.Alekseyev Milli Kitabxanaya kolleksiyadan olan kitablardan təqdim edib.

Qonaqlara "Azərbaycan Milli Kitabxanası" fotoalbomu, "Azərbaycan xalçaları dünya kolleksiyalarında" kitabı hədiyyə olunub.

Görüşdə Bakıdakı Rus Evinin əməkdaşları Yelena Svileva və Lalə Həsənova da iştirak ediblər.

Sonda qonaqlar Milli Kitabxana ilə tanış olublar.

# Rejissor Vasif Babayev videokamerasını Dövlət Film Fonduna hədiyyə edib

Xalq artisti, görkəmli televiziya və kino rejissoru Vasif Babayev Azərbaycan Dövlət Film Fondunun qonağı olub.



Sənətkar şəxsi videokamerasını qorunub saxlanılması üçün fondun muzeyinə hədiyyə edib.

Fonddan bildirilib ki, bu videokamera vasitəsilə rejissorun yaradıcılığının son illərinə aid filmlər ərsəyə gəlib.

Vasif Babayev Azərbaycanda televiziya rejissorluğu məktəbinin qurucularından biri, "Sahil bağı", "Qızılı yamaclar", "Xuraman", "İçərişəhərin əbədi nağılı", "Yüksəliş" və s. filmlərin rejissorudur. Bir neçə nəsil televiziya işçilərinin yetişməsində onun bilavasitə əməyi olub.

# Tailand da Azərbaycandakı multikulturalizm təcrübəsi ilə maraqlanır

Tailandın Xarici İşlər Nazirliyinin və digər qurumlarının nümayəndə heyəti sentyabrın 11-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) olub.



BBMM-in icraçı direktoru Rəvan Həsənov qonaqlara Azərbaycandakı multikulturalizm siyasəti haqqında məlumat verib. Bildirib ki, multikulturalizm Azərbaycanda tarixən formalaşsa da, onun siyasi əsasları Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub, multikulturalizm dövlət siyasəti səviyyəsinə yüksəlib. Bu siyasət Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

R.Həsənov 2014-cü ildə yaradılan mərkəzin azsaylı xalqların mədəniyyətinin, dilinin, inanclarının qorunması istiqamətində mühüm layihələr həyata keçirdiyini qeyd edib. Diqqətə çatdırıb ki, dünyanın bir sıra universitetlərində "Azərbaycan multikulturalizmi" fənni tədris edilir. Tədris layihəsinin davamı olaraq Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün qış və yay məktəbləri təşkil edilir.

Mərkəz eyni zamanda mədəniyyətlərarası və dinlərarası dialoqu təşviq etmək məqsədilə beynəlxalq konfransların təşkili üçün platforma rolunu oynayır.

Tailand nümayəndə heyətinin üzvləri Azərbaycan multikulturalizmindən bəhs edən filmi izləyiblər. Multikulturalizm sahəsində təcrübə mübadiləsi aparmaq istiqamətində əməkdaşlıq məsələsi müzakirə olunub.

# Naxçıvan teatrında işə qəbul üzrə müsahibə keçirilib

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı tərəfindən quruluşçu rejissor, musiqi hissə rəhbəri, ədəbi dram hissəsinin rəhbəri, dram artisti, vokal artisti, orkestr artisti, dekorçu rəssam vəzifələrinin tutulması üçün 26 avqust tarixində müsahibə elan olunub. Müsabiqədə iştirak üçün 18 namizəd qeydiyyatdan keçib.



Sentyabrın 10-da teatra bəzi yaradıcı vəzifələrə işə qəbul üzrə müsahibə keçirilib. Bu mərhələdə qeydiyyatdan keçmiş 18 nəfərdən 16-sı müsahibədə iştirak edib. Onlardan 7 nəfər müəyyən edilmiş keçid balını toplayaraq uğur qazanıb.

Namizədlər müsahibənin nəticəsi ilə Naxçıvan Dövlət Milli Dram Teatrının rəsmi instaqram səhifəsində tanış ola bilərlər.

# Masallıda şair-polisin xatirəsi anılıb

Masallı rayon Mərkəzi Kitabxanasında şair Azad Talışoğlunun (Azad Əkbər oğlu Quliyev; 1924–2008) 100 illiyi ilə əlaqədar "Beynəlmiləlçi və humanist şair" adlı tədbir keçirilib.




Qeyd edilib ki, Masallı rayonunun Qodman kəndində dünyaya göz açan Azad Talışoğlu 1942-ci ildə Böyük Vətən müharibəsinə yollanıb. Müharibədən sonra daxili işlər sistemində sıravi polis işçisindən polis polkovniki rütbəsinə qədər yüksəlib. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tarix fakültəsini bitirəndən sonra Bakı Şəhər Polis İdarəsinin, DİN-in Pasport qeydiyyatı şöbəsinin rəisi vəzifələrində çalışıb.

"Talışoğlu" təxəllüsü ilə şeirlər yazıb. Müəllifin "Talış dağları", "Çiçəkli diyar", "Ana məhəbbəti", "Vətən eşqi" və s. kitabları çap olunub.

# Göygöldə Moruq festivalı

Hər il Azərbaycanın ayrı-ayrı rayonlarında yerli sakinlərin, eləcə də qonaqların böyük maraqla qatıldığı regionlarımızın təbiət nemətlərinə – meyvələrə (nar, alma və s.) həsr olunan festivallar keçirilir. Bu günlərdə onların sırasına daha biri qoşulacaq.




Göygöl Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Moruq festivalı keçiriləcək. 14-15 sentyabr tarixlərini əhatə edəcək festival rayonun Keşkü kəndində təşkil olunacaq. Festivalda qonaqlara moruqdan hazırlanan müxtəlif təamlar və içkilər təklif ediləcək.

Festival çərçivəsində həm uşaqlar, həm də böyüklər üçün əyləncəli proqramlar və konsert nəzərdə tutulub. Təbiət qoynunda vaxt keçirmək istəyənlər üçün isə xüsusi ərazi ayrılacaq. Yerli sənətkarların əl işlərindən ibarət yarmarka da keçiriləcək.

# Şuşa şəhərinə növbəti infotur

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə Şuşa şəhərinə növbəti infotur təşkil edib.




İnfoturda məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri ilə bağlı qurumun tərəfdaşı olan şirkətlərin nümayəndələri iştirak ediblər. Onlara Prezident İlham Əliyevin tapşırığı ilə rayonda aparılan bərpa-quruculuq işləri, Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası barədə məlumat verilib. İnfotur iştirakçıları Şuşa şəhərində yeni salınan yaşayış məhəlləsində doğma yurda qayıdan keçmiş məcburi köçkün ailələri ilə görüşüb, onların fikir və rəylərini öyrənib, foto-video çəkilişlər aparıblar.

Bildirilib ki, indiyədək Şuşa şəhərində 204 ailənin (763 nəfər) məskunlaşması təmin edilib.

# Daha 18 ailə Laçında məskunlaşıb

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış laçınlı ailələrdən ibarət növbəti köç karvanı sentyabrın 11-də doğma yurda qayıdıb. Bu mərhələdə Laçın şəhərinə daha 18 ailə (59 nəfər) köçürülüb.



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Laçın rayonunda Bərpa Tikinti və İdarəetmə Xidmətinin əməkdaşlarının iştirakı ilə sakinlərə evlərinin açarların təqdim edilib.

Bununla da Laçın şəhərində 570 ailənin, yəni 2090 nəfərin daimi məskunlaşması təmin edilib.

# Gəncədə Mobil Əhmədovun xatirəsinə həsr olunmuş konsert

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında tanınmış vokalçı, aktyor, uzun illər Musiqili Komediya Teatrının (indiki Akademik Musiqili Teatr) aparıcı səhnə ustası olmuş Xalq artisti Mobil Əhmədovun (1931–2006) anadan olmasının 93-cü ildönümü ilə bağlı konsert keçirilib.

"Gəncə və gəncəlilər" layihəsi çərçivəsində Azərbaycan Dövlət Akademik Musiqili Teatrı ilə bir təşkil olunan konsertdə sənətkarın qızı Nigar Əhmədova atası ilə bağlı xatirələrini bölüşüb.

Xalq artistləri Heydər Anatollu, Sevinc İbrahimova, Əməkdar artistlər – Mobil Əhmədovun tələbəsi Ramil Qasımov, Kəmalə Tağızadə, Almaz Ələsgərova, həmçinin solistlər Səttar Nəsirov, Rüstəm





Cəfərov, Elmir Pişnamazzadə, Məhərrəm Qasımov, Vasif Bayramov və Şaban Cəfərov sənətkarın repertuarından əsərlər ifa ediblər.

Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Əsgərin mahnısı, Tofiq Quliyevin "Sevgilim", "Badamlı", Rauf Hacıyevin "Ay qız", Oqtay Kazıminin "Ey xəyal" əsərləri səsləndirilib. Bütün ifalar alqışlarla qarşılanıb.

# Bölgələrdən qısa xəbərlər



Lerik rayon Mərkəzi Kitabxanasında Əməkdar incəsənət xadimi, müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair və dramaturq, nasir və publisist, ictimai xadim Hidayət Orucovun 80 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. Çıxışlarda Hidayət Orucovun zəngi yaradıcılığı haqqında söz açılıb.

***



Masallı rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə şəhər sakinlərinə səyyar kitabxana xidməti göstərilib. Xidmət zamanı kitabxananın əməkdaşı şəhərin Heydər Əliyev prospektində yerləşən çoxmənzilli yaşayış binalarının sakinlərinə kitabxana fondu və abunə yazılmaq qaydaları haqqında məlumat verib.

***



Astara rayon Mərkəzi Kitabxanasının uşaq şöbəsində "Smayliklərin ad günü" mövzusunda tədbir keçirilib. Bildirilib ki, 9 sentyabr 1982-ci ildə ABŞ-nin Karnegi Mellon Universitetinin professoru Skott Falman öz həmkarlarına elektron məlumat göndərir və gülümsər üzə bənzəyən simvoldan istifadə edir. Sonradan həmin tarixi "Smayliklər günü" kimi qeyd etməyə başlayıblar.

Tədbirdə kitabxana əməkdaşları və fəal oxucuların tullantı əşyalardan hazırladıqları müxtəlif smayliklərə baxış olub.

**Hazırladı: N.Məmmədli**

# Əlincə dağına təbiət abidəsi statusu verilib

Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisindəki Əlincə dağına təbiət abidəsi statusu verilib.

Baş nazir Əli Əsədov 9 sentyabr 2024-cü il tarixində Nazirlər Kabinetinin bununla bağlı qərarını imzalayıb.

Qərara əsasən, Culfa rayonu ərazisində, Əlincəçayın sağ sahilində və Zəngəzur silsiləsinin suayırıcısındakı Aracı yüksəkliyindən cənub-qərbə ayrılan Dibəkli qolunun eyni istiqamətli Qırxlardağın şərq yamacında yerləşən, hündürlüyü 1821,4 metr olan Əlincə dağına respublika əhəmiyyətli təbiət abidəsi statusu verilib və ərazi Əlincədağ təbiət abidəsi adlandırılıb.

Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və Culfa Rayon İcra Hakimiyyətinə Əlincədağ təbiət abidəsinin yerləşdiyi ərazinin təşkili və mühafizəsi üçün bu obyektin yerləşdiyi ərazinin torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə birlikdə qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görmək tapşırılıb.



# Baş Qərvənd də "ağıllı kənd" olacaq

## Slovakiyalı mütəxəssislər cəlb edilib



Ağdamın işğaldan azad olunan Baş Qərvənd kəndinin yenidən qurulmasında "ağıllı kənd" layihəsi icra ediləcək. Hazırda kənddə söküntü və şaquli planlaşdırma işləri yekunlaşmaq üzrədir.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin mətbuat katibi Leyla Sarabi bildirib ki, kənddə tətbiq ediləcək "ağıllı həllər" Azərbaycan dövlətinin vəsaiti ilə Slovakiyanın mütəxəssisləri və mühəndisləri tərəfindən reallaşdırılacaq.

Layihə çərçivəsində ümumilikdə ərazisi 476 hektar olan kəndin tamamilə yenidən qurulması nəzərdə tutulur. Birinci mərhələdə burada 275 hektar ərazidə 851 evin tikintisi planlaşdırılır.

"Burada "ağıllı texnologiyalar"dan istifadə ediləcək. Tullantıların utilizasiyası, "yaşıl enerji"dən istifadə və kanalizasiya təmizləmə qurğusu quraşdırılacaq. Bütün növ qənaətli texnologiyalar "ağıllı kənd" konsepsiyası çərçivəsində tətbiq ediləcək. Təbii materiallardan olan evlərin inşası, həmçinin evlər üçün smart texnologiyaların istifadəsi də nəzərdə tutulur.

# İşğaldan azad edilmiş ərazilərdə yeni məktəblər açılır

Bu il Şuşada 1 nömrəli məktəbin açılması ilə yanaşı, Xocalı, Xankəndi və Cəbrayıl şəhərlərində, habelə Laçın rayonunun Sus kəndində məktəblərimiz fəaliyyətə başlayacaq. Bununla da 10-a yaxın məktəbimizin fəaliyyəti təmin ediləcək.

Bunu jurnalistlərə müsahibəsində elm və təhsil naziri Emin Əmrullayev bildirib.

Onun sözlərinə görə, Ağdərə rayonunun Suqovuşan kəndində və Kəlbəcər şəhərində tikilən məktəblərdə tədris sakinlərin köç prosesinin vaxtına uyğun olmaqla oktyabr və noyabr aylarında başlayacaq. Hazırda işğaldan azad edilmiş ərazilərdə yeni məktəblərin tikintisi davam etdirilir. 2025–2026-cı illərdə daha çox məktəbin fəaliyyətə başlaması nəzərdə tutulur.

**Uğur sorağında**

# "Onu gələcəyin ustad xanəndəsi kimi görmək istəyirəm"

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə ötən il keçirilən Uşaq İncəsənət Festivalında (UİF) nailiyyət əldə edən istedadlarımızı tanıtmağa davam edirik. "Uğur sorağında" rubrikasının növbəti qonağı 14 yaşlı xanəndə Məhəmməd Əlizadədir.

Məhəmməd Sərxan oğlu Əlizadə 2010-cu ildə Bərdə rayonunda anadan olub. Bərdə rayon Adil Süleymanov adına Şorəlli kənd tam orta məktəbində təhsil alıb. Paralel olaraq Bərdə şəhər 4 nömrəli Uşaq incəsənət məktəbində oxuyub.

Məhəmməd kiçik yaşlarından musiqiyə həvəs göstərib, evdə özü üçün musiqilər ifa edib. Onda bu istedad, həvəs təsadüfi yaranmamışdı. Çünki ailələrində musiqiçilər vardı: "Bir gün evdə öz-özümə mahnı zümzümə edirdim. Müəllimə işləyən nənəm ifamı telefonla çəkib iş yoldaşlarına göstərdi. Bundan sonra Gəncə şəhərindəki yerli televiziya kanalı mənimlə maraqlandı. Həmin kanalın "Gəncədə istedadlı uşaqlar axtarışında" adlı verilişinə dəvət olundum. Verilişdə ifa etdim və maraqla qarşılandı".



Məhəmməd musiqi məktəbində keçirilən bütün tədbirlərdə çıxışlar edib, dəfələrlə mükafatlandırılıb. 2022-ci ildə keçirilən "Avaz – 3" televiziya uşaq muğam müsabiqəsində uğurla iştirak edərək Qran-pri mükafatını qazanıb. Həmin il Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə gerçəkləşən VIII "Muğam" Televiziya Müsabiqəsinə qatılaraq diplomant adına layiq görülüb.

Məhəmmədin ən böyük uğurlarından biri, ötən il ölkəmizdə keçirilən Uşaq İncəsənət Festivalındakı nailiyyətidir: "Festival mənim üçün çox yaddaqalan oldu. Çoxsaylı iştirakçı arasından seçilərək xanəndəlik üzrə 10-13 yaş qrupunda II yeri qazandım. Belə bir böyük festivalda ikinci olmaq mənim üçün böyük nailiyyət idi".

Məhəmmədin arzusu sevdiyi sənəti davam etdirmək, bu sahədə öz sözünü deyən bir xanəndə olmaqdır. Bunun üçün öz üzərində davamlı çalışır.

Yeniyetmə xanəndənin müəllimi olmuş Natəvan İbrahimli 1993-cü ildən Bərdə şəhər 4 nömrəli Uşaq incəsənət məktəbində fəaliyyət göstərir. O, eyni zamanda Ağdam Musiqi Kollecində də xanəndəlik sənətinin sirlərini uşaqlara öyrədir: "Məhəmməd mənim ən istedadlı şagirdlərimdən biri olub. İncəsənət məktəbinə daxil olduğu ilk vaxtlardan həm səs tembrinə, həm də bu sahəyə məsuliyyətlə yanaşmasına görə digər şagirdlərdən fərqlənirdi. Verilən tapşırığı, mövzuları çox yaxşı mənimsəmək qabiliyyəti var".

Anası Gülmirə Tağıyeva 20 ilə yaxındır Bərdə rayon Divanlı kənd Uşaq musiqi məktəbində fortepiano ixtisası üzrə müəllimə işləyir. Gülmirə xanım Məhəmməd kimi istedadlı və ağıllı övlada sahib olduğu üçün qürur duyduğunu deyir: "Məhəmmədin yaşı az olmağına baxmayaraq, milli sərvətimiz olan muğamımızı sevə-sevə oxuyur. Mənim bir ana kimi Məhəmmədə olan arzularım, diləklərim tükənməzdir. Onu gələcəyin ustad xanəndəsi, eləcə də savadlı pedaqoq kimi görmək istəyirəm. Elə özünün də arzusu ustad xanəndə olmaqdır".

Biz də Məhəmmədə sevdiyi sənət yolunda uğurlar diləyirik.

**Nurəddin**

# Sənət əfsanəsi

## Arif Məlikov böyük müəllim kimi də yaddaşlarda yaşayır



13 sentyabr. İlk baxışdan sıradan bir payız günü. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 309 nömrəli otağında isə bu gün ən əlamətdar günlərdən biri kimi uzun illərdən bəri qeyd olunur.

Dahi bəstəkarımız, musiqimizin əvəzsiz xəzinəsi Arif Məlikovun (1933–2019) doğum günü. Artıq beş ildir ki 13 sentyabr tarixində bu otağa toplaşan Bəstəkarlıq kafedrasının professor-müəllim heyəti, tələbələr dahi bəstəkarın ad gününü qeyd etmək üçün deyil, onun xatirəsini yad etmək üçün toplaşırlar.

Tələbələrinin sevimli müəllimi, kafedranın heyəti üçün diqqətli, qayğıkeş rəhbər olan Arif Məlikov ilə hər dərs misilsiz dəyərə malik, kənardan adi görünə biləcək söhbət belə sanki böyük bir məktəb idi. O, tələbələrlə bəstəkarlıq sənətinin sirlərinə dair səmimi, maraqlı söhbətlər etməklə, sənət xatirələrini bölüşməklə yanaşı, dərs prosesinə də bir o qədər ciddi yanaşırdı. Tələbələrə qayğısını əsirgəmir, onların tədris proqramını mükəmməl mənimsəməsi üçün əlindən gələn hər köməyi edirdi. Onun təşəbbüsü ilə tələbələrinin Moskvada Böyük Teatrın səhnəsində "Məhəbbət əfsanəsi" baletinin premyera tamaşasında iştirak etməsi hələ də onlar tərəfindən qiymətli bir hadisə kimi qeyd olunur.

Bəlkə də mükəmməl müəllim olmağı o öz müəllimi Qara Qarayevdən öyrənmişdi. Arif Məlikovun məhz dahi Q.Qarayevin sinfində təhsil alması onun ilk böyük şansı olmuşdur desək, yanılmarıq. Q.Qarayev öz tələbələri ilə dərslərində musiqinin ən xırda sirlərini o qədər mükəmməlliklə bölüşüb izah edirdi ki, bu, tələbələrinin müasirliyə doğru çəkinmədən, inamla addımlamaları üçün zəmin olurdu. Bunu Arif müəllim Q.Qarayevlə bağlı xatirələrindən bəhs edərkən dəfələrlə vurğulayıb.

Məhz bu dərslərin nəticəsi olaraq Arif Məlikov yaradıcılıq həyatının ən böyük uğuru hesab edilən, ona gənc yaşında dünya şöhrəti gətirən, Fərhad və Şirinin məhəbbət hekayəsindən bəhs edən möhtəşəm "Məhəbbət əfsanəsi" baletini yaradır. Nazim Hikmətin librettosu əsasında yazılan bu baletin musiqisi ecazkarlığı ilə dünya musiqi sənətini bu günə qədər öz sehrinin əsarətində saxlayır. Demək olar ki, hər bir notunda Şərq koloriti, muğam intonasiyaları, milli lad elementlərinin duyulduğu baletin dünya səhnələrini fəth etməsi bir daha musiqi məfhumunun insanın dinindən, millətindən asılı olmayaraq, qəlblərə yol tapan möhtəşəm qüvvəyə malik olmasının sübutudur.

Bu gün Bakı Musiqi Akademiyasının Bəstəkarlıq kafedrasında Arif Məlikov cismani olaraq yoxdur. Lakin vaxtilə onun tələbələri olan və bu gün onun qoyduğu yol ilə gedən kafedranın müəllimləri Arif Məlikov missiyasının davamçıları hesab oluna bilərlər. Onlar öz müəllimlərindən öyrəndikləri kimi bu sənət yolunda gənc bəstəkar nəslinin peşəkar səviyyədə yetişməsi üçün bilik və təcrübələrini əsirgəmirlər.

Arif Məlikov beş ildir ki, xatirələrdə yad edilir. Onun əsərləri, "Məhəbbət əfsanəsi" kimi musiqi inciləri isə sənət aləmində ölümsüzlük qazanıb və öz müəllifini də əbədi yaşadacaq.

**Sevinc Əlləzova**
**Ü.Hacıbəyli adına BMA-nın Bəstəkarlıq kafedrasının müəllimi**

# Möhtəşəm konsertin uzun sədaları

Azərbaycan Bəstəkarlar İttifaqının dəstəyi ilə sentyabrın 9-da Beynəlxalq Muğam Mərkəzində keçirilən Türkiyənin "Lagom" simli kvartetinin konserti yeni başlanan sənət mövsümünün yaddaqalan hadisələrindən olacaq.



Konsert həmişə adət etdiyimiz tədbirlərdən müəyyən dərəcədə fərqlənirdi. Əvvəla, isti yay günlərindən sonra keçirilən konsert növbəti mövsümdə möhtəşəm klassik musiqi tədbirlərinin başlanmasının ilk müjdəçisi idi. Ən əsas səbəb isə dünyaşöhrətli Azərbaycan bəstəkarı, Xalq artisti, UNESCO-nun "Sülh artisti", professor Firəngiz Əlizadənin əsərlərinin səslənməsi idi.

Ölkəmizdə "Formula 1" yarışının keçirildiyi ərəfədə Beynəlxalq Muğam Mərkəzinə olan yolların əksər hissəsi bağlı idi. Buna baxmayaraq, piyada şəkildə yolları keçib gələn musiqisevərlər klassik musiqinin ecazkar sədalarını dinləmək üçün təşrif buyurmuşdular. Saat 20:00-da başlayacaq konsertin məkanında yerlər vaxtından xeyli əvvəl dolmuşdu. Hətta arxa sıralarda dayanaraq klassik musiqini səbirsizliklə gözləyən çox sənətsevər vardı. Çoxdan idi ki, belə dolub-daşan salonda klassik musiqi həvəskarlarının yığışdığını müşahidə etməmişdik.

"Lagom" kvarteti Türkiyənin Bilkənd Universitetinin 2021-ci ildə məzun olan gənc musiqiçiləri tərəfindən təşkil olunub. Kvartetin adı "musiqidə səslərin balansının saxlanılması" mənasını verir. Kvartetin belə adlanması isə təsadüfi deyildir, çünki əsas məqsəd repertuara dinləyicilər tərəfindən rəğbətlə qarşılanan əsərlərin daxil edilməsidir. Qeyd edək ki, "Lagom" kvartetinin repertuarına dünyanın məşhur bəstəkarlarının əsərləri daxildir.

Kvartetin tərkibinə azərbaycanlı violin ifaçısı Hüseynəli Hüseynəliyev (birinci violin), qırğızıstanlı Aliyə Okeyeva (ikinci violin), türk musiqiçiləri – viola ifaçısı Semih Tercan və violonçel ifaçısı Yaşar Koroğlu daxildir. Sevindirici haldır ki, qısa zaman müddətində şöhrət qazanmış kvartetin rəhbəri məhz azərbaycanlıdır.

Proqrama Firəngiz Əlizadənin "Muğamsayağı" və "Rəqs", türk bəstəkarları Kamran İncenin "Curve" və Fazil Sayın "Ailə" ("Simli kvartet. Op. 29") əsərləri daxil idi.

Kvartetin rəhbəri H.Hüseynəliyev tamaşaçıları heyətlə tanış etdikdən sonra Bakı konserti ilə bağlı fikirlərini bölüşdü. O, həmçinin hər ifadan əvvəl əsər haqqında annotasiya verərək, dinləyicilərin daha da marağına səbəb oldu.

Konsert Firəngiz Əlizadənin "Muğamsayağı" əsəri ilə başladı. Qeyd edək ki, "Muğamsayağı" əsəri ilk dəfə 1993-cü ildə Amerika Birləşmiş Ştatlarında ifa olunduqdan sonra dünyanın möhtəbər konsertlərində daim səslənir. H.Hüseynəliyev bildirdi ki, kvartet bu əsəri ifa etdikdən sonra tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb və böyük uğura səbəb olub. Buna görə də "Muğamsayağı" artıq kvartetin daimi repertuarına daxil edilib. Səhnə tərtibatı da əsərin dərin fəlsəfəsini özündə əks etdirirdi. Qaranlıq fonda səhnədə parlayan bir işığın ətrafında toplaşan musiqiçilər sanki muğam ocağına yığışaraq, onu dərk etməyin yollarını axtarırdılar.

Əsərlərində müasirlik təzahür olunan F.Əlizadənin daxili aləmi muğam musiqisini ehtiva edir və bu xüsusiyyət bəstəkarın "Muğamsayağı" əsərində təsdiqini tapıb. Onun əsərlərində daxili dünyasının təməli olan muğam vasitəsilə xalqının mənəvi aləmindən irəli gələn istək və düşüncələri əks olunub. Firəngiz xanımın əsərləri məhz bu özünəməxsusluğuna görə dünya musiqiçilərinin diqqətini cəlb edir. Bəstəkarın Şərq və Qərb kontekstində əsərinin mahiyyətini, dərin fəlsəfəsini duyan kvartet üzvləri həmin gün bu hissi bir daha dinləyicilərə yaşatdılar.

Amerikada yaşayan türk bəstəkar Kamran İncenin əsərləri minimalizm üslubundadır. Kvartetin ifasında bəstəkarın "Curve" əsəri səsləndi. Bu əsər bədii məzmun baxımından "qövslər" mənasını verir. Əsərdə səslərin hərəkəti sanki reallıqda olan qövslərin birləşməsini və yaxud qarşılaşmasını ifadə edir.

Digər musiqi nömrəsi tanınmış türk bəstəkarı və pianoçusu Fazil Sayın üçhissəli "Ailə" əsəri oldu. Əsər haqqında çıxış edərkən H.Hüseynəliyev söylədi ki, bu əsər bəstəkarın şəxsi həyatının, uşaqlıq xatirələrinin təzahürü kimi yaranıb. Əsərin hər bir hissəsi ailədaxili baş verən hadisələri əks etdirir və musiqinin ruhu da bu istiqamətə köklənib.

Qeyd etməliyik ki, Fazil Sayın yaradıcılığı azərbaycanlı musiqiçilərə tanışdır, çünki Türk dünyasının bu görkəmli bəstəkarı və pianoçusu Bakıda da konsert proqramı ilə çıxış edib. "Lagom" kvartetinin ifasında Fazil Sayın əsəri sürəkli alqışlarla qarşılandı.

Firəngiz Əlizadənin "Muğamsayağı" əsəri ilə başlayan konsert bəstəkarın "Rəqs" əsəri ilə tamamlandı. Bununla da kvartet üzvləri onları Bakıya dəvət etmiş professor Firəngiz Əlizadəyə təşəkkürlərini ifadə etmiş oldular.

Anşlaqla keçən konsert sübut etdi ki, klassik musiqi insanların ruhuna mənəvi bir qidadır və klassik musiqi öz nümunəvi cəhətləri ilə insanlara xoş ovqat aşılayır. Və möhtəşəm konsertin, bu klassik musiqinin sədaları əminik ki, uzun zaman tamaşaçıların yaddaşından silinməyəcək. Sonda bir daha "Lagom" kvartetinin üzvlərinə uğurlar arzulayır və onları yenidən Bakıda dinləmək istəyilə təşəkkür edirik.

**Aytən Babayeva**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

# "Ledi Maqbet" Milli Dram Teatrının səhnəsinə çıxacaq

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Vilyam Şekspirin əsərinin motivləri əsasında hazırlanan "Ledi Maqbet" tamaşasının məşqlərinə başlanılıb.




Teatrdan bildirilib ki, səhnə əsəri Xalq artisti Bəsti Cəfərovanın yubileyi münasibətilə benefis tamaşa olacaq. Akademik Milli Dram Teatrının bədii rəhbəri Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə tamaşanın yaradıcı heyəti ilə görüşüb, yeni işdə kollektivə uğurlar arzu edib.

Tamaşaya Əməkdar artist Nicat Kazımov quruluş verəcək. Quruluşçu rəssam Samirə Həsənova, bəstəkar Azər Hacıəsgərli, rejissor assistenti Ceyran Başarandır. Rəqslərin quruluşu isə Lalə Hacıyevaya həvalə olunub.

"Ledi Maqbet"də rolları Xalq artistləri Bəsti Cəfərova, Sabir Məmmədov, Kazım Abdullayev, Əməkdar artistlər Elşən Rüstəmov, Məsmə Aslanqızı, Aslan Şirin, Elşən Cəbrayılov, Mətləb Abdullayev, Elnar Qarayev və aktyorlar Elnur Qədirov, İlahə Həsənova, İlyas Əhmədov, Vüsal Mustafayev, Xədicə Novruzlu və digərləri ifa edəcəklər.

Tamaşanın ilin sonunadək teatrsevərlərə təqdim olunması nəzərdə tutulub.

# Gəncə teatrı Bakıya qastrola gələcək

Gəncə Dövlət Milli Dram Teatrı yeni mövsümdə geniş qastrol proqramı da planlaşdırır. Yaradıcı heyət oktyabrın 30-da Bakıda səfərdə olacaq.



Kollektiv paytaxt teatrsevərləri qarşısına Dövlət Milli Gənc Tamaşaçılar Teatrının səhnəsində "Toros canavarı" tamaşası ilə çıxacaq. Teatrın son premyeralarından olan tamaşa Türkiyə yazıçısı Əziz Nesinin "Toros canavarı" əsəri əsasında ərsəyə gəlib.

Məişət mövzulu "qara komediya"nın quruluşçu rejissoru İstanbulun Maltəpə Bələdiyyə Teatrının baş rejissoru, Avrasiya Teatrlar Birliyinin (ATB) baş katibi Kubilay Erdelikara, rejissoru ATB-nin Azərbaycan təmsilçisi Yusif Cəfərov, quruluşçu rəssamı Mustafa Mustafayevdir.

Rolları Əməkdar artistlər İlham Hüseynov, Sevda Orucova, Novruz Cəfərov, Ramiz Vəliyev, aktyorlar Günay Cabbarova, Samir Abbasov, Akif Səfərov, Emil Salmanov, Elmir Məmmədov və Həsən Cəfərov ifa edirlər.

# Bakı Bələdiyyə Teatrı yeni mövsümü açıb

Bakı Bələdiyyə Teatrı 32-ci mövsümü görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun "Ana tarla" əsərinin tamaşası ilə açıb.



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində təqdim olunan tamaşadan öncə Qırğızıstanın Azərbaycandakı səfiri Maksat Mamıtkanov çıxış edərək, iki ölkə arasındakı əməkdaşlıqdan söhbət açıb.

Sonra "Ana tarla" tamaşası nümayiş olunub. Rolları Əməkdar artistlər Hüsniyyə Mürvətova, Səməyə Sadıqova, aktyorlar Rəşad Kəsəmənli, Tural Əhməd, Namiq Cavadov, Elçin Muradov, Ülviyyə Rza, İsmayıl Atakişiyev və başqaları ifa ediblər.

Əsər doğma yurda və torpağa sadiq olan sadə insanlardan bəhs edir. Tamaşada İkinci Dünya müharibəsində insanların yarımçıq qalmış taleləri, məhv olmuş arzu və istəkləri, eyni zamanda insanlığa, gələcəyə ümidləri əks olunur.

# Sevgi, olmaq və ya olmaq: musiqili kino axşamı

## Leyla Bəyim: "Çox istəyirdim ki, bu filmi Bakıdakı əziz həmvətənlərim də görsünlər"



Çexiyada fəaliyyət göstərən "Natəvan" Cəmiyyətinin təşəbbüsü ilə sentyabrın 10-da Beynəlxalq Muğam Mərkəzində "All + about = Love, To Be or to Be?" ("Hamısı haqqında = Sevgi, olmaq və ya olmaq") adlı musiqili kino axşamı keçirilib.

Cəmiyyətə azərbaycanlı şairə, yazıçı, diaspor fəalı Leyla Bəyim (Cəfərova) rəhbərlik edir.

Gecədə iki qısametrajlı film – "To Be or to Be?" (rejissor Leyla Bəyim, prodüser Boris Qoldberq, Bakıdakı çəkilişlərin art-direktoru Ülviyyə Axundova; ABŞ-Çexiya) və "Divarın o tayında" (rejissor və prodüser Azər Ağalarov; Almaniya-İspaniya) nümayiş etdirilib. Beynəlxalq festivallarda nümayiş olunmuş hər iki ekran əsəri həm Azərbaycanda, həm də xaricdə yaşayan azərbaycanlı yaradıcı ziyalıların nümayəndələrinin iştirakı ilə ərsəyə gətirilib.

Gecənin musiqi hissəsi Qara Qarayev adına Azərbaycan Kamera Orkestrinin ifasında təqdim olunub. Qara Qarayevin və Bedriç Smetananın əsərləri səsləndirilib.

Tədbirdə həmçinin Ülviyyə Adıgözəlin ifasında "You and I" və Mariya Cəfərovanın ifasında "Məryəmin laylası" mahnılarının videopremyerası, xoreoqraflar və rəqqasələr Alek Ağalarov və Faye Anderson-Ağalarovanın klipi, habelə məşhur cazmen, pianoçu Salman Qəmbərovun ifasında "Angel in the Night" ("Gecənin mələyi") kompozisiyası və Qasım Xəlilovun (klaviaturalar – Dmitri Mirošničenko, saksofon – Teymur Süleymanbəyli) ifasında ariyalar təqdim edilib.



Bundan başqa, Leyla Bəyimin librettosu əsasında bəstəkar Elxan Məmmədovun "İmmolatio" rok operasının gələcək layihəsi açıqlanıb.

Tədbirin rejissoru Azər Ağalarov, aparıcıları Leyla Bəyim və Ülviyyə Axundova olublar.

Leyla Bəyim bildirib ki, bu tədbir onun üçün böyük mədəniyyət hadisəsinə çevrilib. "To Be or to Be?" filmi Qərb və Şərq sivilizasiyasının iki mərkəzi, bir-birinə ruhən çox yaxın olan iki gözəl şəhər – Bakı və Praqa arasında körpü qurur. Əbəs yerə deyil ki, "Yerin mərkəzinə səyahət" kitabının müəllifi – mənim qəhrəmanım 298 yaşında "yerin mərkəzini" öz gözləri ilə görmək üçün səyahətə çıxıb... Bu kino səyahəti Avropa film festivallarında yüksək qiymətləndirilib. Çox istəyirdim ki, gözəlliyi və enerjisi ilə bənzərsiz olan bu filmi əziz həmvətənlərim, Bakı şəhərinin sakinləri də görsünlər", – deyə o vurğulayıb.

№68 (2133)
13 sentyabr 2024
www.medeniyyet.az

# Qaçılmaz taleyə şeir yazan qadın...

Tamilla Axundova. Onun şeirləri ilə ilk dəfə 2012-ci ildə tanış olmuşdum. Bu poeziya nümunələrini oxuyanda müəllifin yaradıcılığının mərkəzində nəcib, dərin duyğulu qadın obrazı dayandığı qənaətinə gəlmişdim...



Ötən müddətdə onu yaxından tanımaq imkanım olmadı. Təsadüf nəticəsində bildim ki, Tamilla Axundova bu il yubiley yaşını qeyd edir. Daha bu fürsəti əldən vermək olmazdı. Onunla görüşümüz məni çox məqamlardan xəbərdar etdi. Peşəsi poeziya ilə uyğun gəlməsə də, deyir ki, əlinə qələm almağında bəlkə də sənətinin böyük rolu olub.

O, sənətə gəldiyi yola qədərki dövrdən – uşaqlıq xatirələrindən söz açır, özü haqqında məlumat verir. Əslində, ona heç də sənədli-sübutlu yaşını vermək olmaz. Sanki həyat onu daim əzizləyib, xoş üz göstərib. Bu da yəqin ki, onun həyatı, yaşam mühiti və hər zaman optimist hisslərlə dolu olmasından irəli gəlir.

Tamilla Axundova ixtisasca ali dərəcəli həkim-psixiatrdır. Azərbaycan Tibb Universitetinin (ATU) Psixiatriya kafedrasında, həmçinin 2 saylı Bakı Şəhər Ruhi Əsəb Xəstəlikləri Dispanserində şöbə müdiri və baş həkim kimi fəaliyyət göstərib. Bir neçə kitabın müəllifidir, şeirlərinə musiqilər yazılıb. Azərbaycanın və Rusiyanın Yazıçılar birliklərinin üzvüdür. Bakıda və Moskvada dəfələrlə yaradıcılıq gecələri təşkil olunub. Sadaladığımız bütün bu yolun isə, təbii ki, bir başlanğıcı var. Elə isə Tamilla xanımın çox maraqlı həyat hekayəsi ilə öz dilindən tanış olaq.

### Bu yol məni hara aparır?

– Uşaqlıq xatirələrimdən danışmaq istəyirəm. Valideynlərimin hər ikisi mühəndis idi. Demək olar, bütün günü işdə olurdular. Ona görə də məni nənəm saxlayıb. Nənəm və nənəmin bacısı. Tərbiyəmdə, ixtisas seçimimdə onların böyük rolu olub. Biri həkim, digəri isə pedaqoq idi. Mələk nənəm dünyasını dəyişəndən sonra bacısı məni bir növ övladlığa götürüb saxladı. Bu qadın kim idi? Əməkdar elm xadimi, Azərbaycanın tanınmış oftalmoloqu, professor, SSRİ Ali Sovetinin deputatı Sona Axundova-Bağırbəyova. Uşaqlıqdan hər yerdə onunla birlikdə idim. Hətta Moskvaya iclaslara gedəndə belə məni özü ilə aparırdı.

### Niyə həkim oldum?

– Psixiatr peşəsi ilə şairəlik bir-biri ilə uyğun gəlmir. Bu peşə ilk baxışdan poetik anlar üçün əlverişli deyil. Yalnız ilk baxışdan belədir... Nənəm məni göz həkimi görmək istəyirdi, amma qandan qorxduğum üçün psixiatr olmağa önəm verdim. Niyə? Bunu izah edə bilmərəm. Mənə bu sahə həmişə maraqlı gəlirdi və 30 ildən artıq bu sahədə çalışdım. Aspiranturanı bitirdikdən sonra 20 il ATU-da dərs dedim. Daha sonra xəstəxanada şöbə müdiri və baş həkim oldum. Ağabəy Sultanovla birlikdə işlədim.

### İlk şeirim belə yarandı

– Mən heç vaxt şeir yazmamışdım. Etiraf edim ki, poeziyaya o qədər də marağım yox idi. Nəsri çox sevirdim. Amma 50 yaşımdan sonra şeirlər yazmağa başladım. İlk şeirimin də maraqlı tarixçəsi var. Bir səhər yataqda uzanıb həmin gün görəcəyim işlərin planını qururdum. Axşam görkəmli yazıçı, kinodramaturq Maqsud İbrahimbəyovun ad günü mərasiminə gedəcəkdik. İşlərin siyahısını yazmaq üçün həmişə çarpayımın yanında olan kağız parçalarını götürürəm. Bu an şeir yazmağa başladım. Bu gün düşünürəm ki, o mənim ən zəif şeirim idi. Şeiri axşam Maqsud müəllimə oxudum. O, çox bəyəndi və ilk dəfə şeir yazdığımı dedim. Yazıçı mənə poetik təcrübələrimi davam etdirməyi məsləhət gördü. Həmin gündən yazılarımı gizli saxladım.

Maqsudla növbəti görüşümüzdə soruşdu ki, yeni şeirlər yazmışammı. Dedim yazıram, amma heç kim görmür. Sabahı şeirlərimi dinləmək üçün evinə dəvət etdi. Xanımı ilə birlikdə beş şeirimi dinlədi və mənim ilk şeirlər kitabımın nəşrinə qərar verdi. Mən tərəddüd edirdim, daha doğrusu, utanırdım. Amma o məni ruhlandırdı. Dedi ki, bu sənə Allah tərəfindən göndərilən istedaddır, niyə gizlətməlisən... İşimdən ayrılandan sonra bir növ həyatın payızı mənim üçün xüsusi bir zaman, yeni, yaradıcı bioqrafiyamın başlanğıcı oldu. Enerjim, duyğularım, insan ruhlarına dair biliklərim poeziya və nəsrdə tamamlandı...

### Böyük sevgi...

Tamilla xanım Xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilovun həyat yoldaşıdır. Onlar 60 ildən çoxdur ki, həyatlarını birləşdiriblər:

– Böyük eşq – onu yazmaq mümkün olmayacaq. Biz Fərhadla birlikdə oxumuşuq. Onun ən böyük sevgisi sənətidir. Mən buna görə onu qısqanmıram. O, tək işləməyi sevir. Çünki o, sənəti ilə təklikdə olmaq istəyir. Hətta mən ona "Yaradanla təklikdə" ("Наедине с творцом") adlı şeir də həsr etmişəm. Hər bir yaradıcılıq məhsulu onun əhvalının, ruhunun fərqli anlarının təzahürüdür. Sənət adamının həyat yoldaşı olmaq nə dərəcədə çətin və asandır onu da deyə bilmərəm. Məişət qayğıları və ev işləri həmişə mənim üzərimdə olub. Hər şeyə rəğmən mən evimin xanımı olmuşam. Ev işləri, yemək bişirmək, bazarlıq – həmişə bunlara özüm nəzarət etmişəm. Bu mənim üçün problem olmayıb. Çünki daim məşğul olmağı sevirəm.

### Həyat mənim üçün nədir?

– Kim deyir ki, yaşamaq asandır, yanılır. Həyat çox çətin və mürəkkəbdir. Hər insanın həyatında zamanın sınaqları olur.



Ailədə və sənət yolunda müəyyən narahatlıqlar yaşanır. Mümkündür ki, nənə nəvələrinə görə narahat olmasın? Bir də bəzən yaxşılıq etdiyin insanlardan zərbələr alırsan. Bu da həyatın çətin anlarıdır. Qoy bütün valideynlərin övladları sağlam olsunlar. Əgər övlad xəstədirsə, ana necə rahat ola bilər? Mənim həyatımda da çətin məqamlar olub.



### Romantik əhval və zəriflik

Rus dilində yazıb-yaradan Tamilla Axundovanın şeir və hekayələrinin yer aldığı bir neçə kitabı işıq üzü görüb. Xalq yazıçısı Anar onun yaradıcılığını belə səciyyələndirir: "Tamilla Axundovanın həm poeziyasında, həm də nəsrində diqqəti cəlb edən nədir? Hər şeydən əvvəl, insanın özünü ifadə etmə səmimiliyi, xarakterin və ya lirik "mən"in zahiri firavan varlığının arxasında qeyri-adi şəxsiyyətin yaşadıqlarını həyata öz münasibətilə üzə çıxarmaq bacarığı, sevgi, yalnızlıq...".

Eyni zamanda narahatlıq, "ruhun çaşqınlığı", "hisslərin yorğunluğu", itkinin acılığından doğan ağrı və ümidsizlik, təklik və tənhalıq arzusu – bütün bu rəngarəng ehtiras və duyğular Tamilla xanımın yaradıcılığının əsas mahiyyətini təşkil edir.

Əsrarəngiz romantik əhvali-ruhiyyə və zəriflikə dolu olan şeirlər, poemalar, fəlsəfi oçerklər, hekayələr müəllifi olan Tamilla Axundovanın yaradıcılığında bir qeyri-adilik, cəzbedici novatorluq və hisslərin azadlığı var. Müəllifin şeirləri ona görə oxucuya yaxındır ki, hər kəs bu sətirlərdə yaşadığı anların təsvirini görə bilir.

Şairin özü bu duyğunu belə təsvir edir: "Tibb də yaradıcılıqdır, xüsusən də psixiatriya. Biz əlimizdə neştər tutmuruq, nevroloqlar kimi avadanlıqdan, hətta çəkicdən də istifadə etmirik. Psixiatr insanın gözlərini, ruhunu, hisslərini görür və onun artıq heç bir yardıma ehtiyacı yoxdur. Bəlkə də yaşadıqlarım, təcrübələrim, qarşılaşdığım hadisələrdən yaranan şeirlər ona görə bu qədər qəlbə yaxın qəbul edilir".

Fəlsəfə və psixologiyanı sevən şairin stolüstü kitabı yapon yazıçısı Akutaqava Ryunoskenin əsərləridir. Ümumiyyətlə, dünya və Azərbaycan klassiklərini oxumağı sevir. Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" da ona maraqlıdır. Yəqin peşəsindən irəli gəlir. Bu əsərin tamaşasına da öz münasibəti var. Doğma Vətəninə sevgisi isə bir başqadır:

*Azərbaycan mənim*
*doğma diyarım,*
*Sənsən bu dünyada*
*sərvətim, varım.*
*Bir yanda Şahdağı,*
*bir yanda Xəzər,*
*Ləpələr çırpınıb*
*nəğmələr düzər…*

Şairin sözlərinə ilk romansı İlham Abdullayev bəstələyib. Daha sonra Rusiyanın Əməkdar artisti, aktyor, rəssam və bəstəkar İqor Kartaşevin onun şeirlərinə bəstələdiyi 12 mahnıdan ibarət disk də işıq üzü görüb.

Sabaha ümid və sevgi ilə baxan, optimist hisslərlə dolu Tamilla Axundovanı yubileyi münasibətilə təbrik edir, möhkəm cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Lalə Azəri**

# Xaricdəki alim soydaşlarımız tədqiqatlarının nəticələrini bölüşüblər

## Birillik strateji planla bağlı müzakirələr aparılıb




Xəbər verdiyimiz kimi, 9-11 sentyabr tarixlərində Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu keçirilib.

Forumun ikinci günündə Fransada yaşayan alim soydaşlarımız Aynur Quliyeva və Reyhan Həsənovanın moderatorluğu ilə keçən panel iclasında məruzələr dinlənilib, müzakirələr aparılıb.

İsveçdən gələn azərbaycanlı alim Səadət Kərimi yaşadığı ölkənin elmi tədqiqat sahəsindəki təcrübəsindən bəhs edib.

"Proqnozlaşdırılma və insan müdaxilələrinin təsirinin qiymətləndirilməsində riyazi modellərin rolu" mövzusunda çıxış edən Yulduz Rəhimov (Kanada) diqqətə çatdırıb ki, 1968-ci ilə nisbətən 2023-cü ildə dünyada adambaşına düşən enerji istehsalı 10,6 dəfə artıb. Bərpaolunan enerji mənbələri ilə bağlı fikirlərini bölüşən alim insanların tələblərinin azaldılması, istifadə edilən mənbələrin sayının artırılmasının vacibliyini vurğulayıb.

Asəf Salmanov (ABŞ) "Məlumat elminin (data science) inkişafı Azərbaycanda prioritet sahələrdən biri ola bilər" mövzulu məruzəsində informatikanın müasir dövrdə inkişafından danışıb, süni intellekt və yeni informasiya texnologiyaları ilə bağlı fikirlərini bölüşüb.

Mehdi Gəncəli (Türkiyə) "1918-1920-ci illərdə nəsr olunmuş Azərbaycan qəzetinin müasir zamanda əks-sədası" mövzusunda məruzə edib. Azərbaycanın müstəqillik tarixinə nəzər salan alim həmin dövrdə nəşr edilən "Azərbaycan" qəzetinin əhəmiyyətini vurğulayıb. Deyib ki, XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə "Azərbaycan" adlı rəsmi dövlət qəzetinin nəşri ölkə tarixinin mühüm hadisəsi idi.

Misirdəki Azərbaycan Diaspor Təşkilatları Birliyinin sədri Seymur Nəsirov "Ərəb mənbələrində Azərbaycan və azərbaycanlılar" mövzusunda fikirlərini bölüşüb. 500-dən çox mənbəni araşdırdığını deyən alim bildirib ki, tədqiqatlarda ölkəmiz və xalqımızla bağlı məlumatlara rast gəlib.

"Azərbaycan və Türkiyə arasında elm və təhsil sahəsindəki əməkdaşlıq məsələləri üzrə hazırkı yanaşma" mövzusunda fikirlərini bölüşən Toğrul İsmayıl (Türkiyə) qardaş ölkədə çalışan azərbaycanlı alimlərin sayının xeyli artdığını diqqətə çatdırıb.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin əməkdaşı Nigar Məsimova (Rusiya) "Azərbaycan və Rusiya arasında elmi əməkdaşlığın xüsusiyyətləri və perspektivləri" mövzusunda danışıb, təhsilə, elmə sərmayə qoyulmasının vacibliyini vurğulayıb.

Bəxtiyar Siracov (Avstriya) Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) virtual məkanda fəaliyyəti ilə çıxış edib.

Forum iştirakçıları birinci sessiyada bir il ərzində hansı işlərin görülə biləcəyini müzakirə edib, təkliflərini veriblər. İkinci sessiyada təkliflərə baxılıb, birillik strateji planla bağlı müzakirələr aparılıb.

Sessiyalardan sonra moderatorlar əldə olunmuş nəticələrlə bağlı təqdimat ediblər.

Yekun iclasda qısa, orta və uzaq müddətli strategiya planı hazırlanaraq qəbul edilib.

Qeyd edək ki, Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirə sentyabrın 11-də yekun vurulub. Foruma 23 ölkədən 80-dən çox azərbaycanlı alim qatılıb.

# Reklam və əqli mülkiyyət: kəsişən məqamlar əməkdaşlığı zəruri edir

Əqli Mülkiyyət Agentliyi ilə Dövlət Reklam Agentliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Bununla bağlı keçirilən görüşdə Əqli Mülkiyyət Agentliyi idarə heyətinin sədri Kamran İmanov hazırda əqli mülkiyyət anlayışının daha geniş sahələri əhatə etdiyini diqqətə çatdırıb. O, Əqli Mülkiyyət Agentliyi ilə Dövlət Reklam Agentliyinin fəaliyyətlərinin bir çox məqamlarda kəsişdiyini, bu səbəbdən əməkdaşlığın ümumi işə töhfələr verəcəyini deyib.

Dövlət Reklam Agentliyi idarə heyətinin sədri Fərhad Adıgözəlov son vaxtlar açıq məkanlarda reklamların yerləşdirilməsi ilə bağlı tədbirlər, problemlərin həlli istiqamətində uyğun gördükləri işlər barədə danışıb.

Əqli Mülkiyyət Agentliyindən verilən məlumatda bildirilir ki, memorandumun imzalanmasında məqsəd Azərbaycan dilinin zənginliyinin və saflığının qorunması, dövlət dilindən istifadənin təkmilləşdirilməsi və təşviqi, xarici dildə olan reklam mətnlərinin ədəbi dil normalarına uyğunluğunun təmin edilməsi, qanunvericiliyin tələblərinə əməl olunması istiqamətində qarşılıqlı fəaliyyətin təşkilidir. Birgə fəaliyyət nəticəsində açıq məkanda xarici dildə reklamı yayımlanan əmtəələrə aid reklam mətnləri ilə bağlı hüquq sahibləri tərəfindən müvafiq qanunvericilik aktlarının tələblərinə əməl olunub-olunmaması müəyyən ediləcək, maarifləndirmə işi aparılacaq. Qeydiyyata alınmış əmtəə nişanları və coğrafi göstəricilərlə təchiz edilmiş əmtəələrə aid açıq məkanda yerləşdirilən reklamlarda qanunvericilik aktlarının müddəalarına riayət olunmasına birgə nəzarət olunacaq.

# Neandertallar necə yox olublar?

## Beynəlxalq layihə ilə bağlı Arxeologiya və Antropologiya İnstitutunda təqdimat

Avropa Elmi-Tədqiqat Şurasının (European Research Council) dəstəklədiyi "Son neandertallar" layihəsinin iştirakçıları AMEA Arxeologiya və Antropologiya İnstitutunda apardıqları elmi-tədqiqatların nəticələri barədə təqdimat keçiriblər.

İnstitutdan bildirilib ki, İtaliyanın Bolonya Universitetinin Mədəni irs departamentinin professoru, Osteoarxeologiya və paleoantropologiya laboratoriyasının müdiri (BONES Laboratoriyası) Stefano Benazzi təqdimatında qədim insanların öyrənilməsində paleopromeotik, diş histomorfometrik, həmçinin rəqəmsal morfometrik və biomexanik üsulların istifadəsinin nəticələri barədə məlumat verib.

Kanadanın Simon Fraser Universiteti Geoarxeologiya laboratoriyasının müdiri professor Françesko Bernanın mühazirəsi arxeoloji ərazilərin formalaşma proseslərinin öyrənilməsi və onların stratiqrafiyasının mikroskopik miqyasda dəqiq səciyyələndirilməsində istifadə olunan üsullara həsr edilib.



Hayfa Universitetinin (İsrail) Arxeologiya və Dəniz Mədəniyyətləri Məktəbinin Paleolaboratoriyasının rəhbəri professor Omry Barzilai qədim insanların daş alətlərinin istehsal texnologiyalarının tədqiqat üsulları və bu sahədə əldə edilmiş nailiyyətlərdən danışıb.

Beynəlxalq layihənin Azərbaycan üzrə koordinatoru, AMEA Arxeologiya və Antropologiya İnstitutunun Trasoloji və eksperimental arxeologiya laboratoriyasının müdiri Əjdər Babazadə bildirib ki, layihədə 11 ölkə iştirak edir. 2024–2030-cu illər ərzində aparılması nəzərdə tutulan layihənin əsas məqsədi neandertalların yoxolma səbəblərinin araşdırılmasıdır. Araşdırmalar üç istiqamətdə – arxeoloji, mikro-arxeoloji və arxeometrik analizlər, paleoekosistem üzrə aparılacaq. Layihə çərçivəsində Azərbaycanda da qədim insan məskənlərinin müəyyənləşdirilməsi, toplanmış arxeoloji materialın analizi məqsədilə respublikamızda arxeometrik laboratoriyaların təşkili nəzərdə tutulub.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev qonaqlarla görüşüb. Yaxın gələcəkdə bu layihə çərçivəsində Azərbaycanda beynəlxalq tərkibli ekspedisiyanın təşkili, azərbaycanlı gənc alimlərin xarici elmi mərkəzlərdə ixtisaslaşması üzrə institut ilə İtaliyanın, Kanadanın və İsrailin elmi-tədqiqat mərkəzləri arasında əməkdaşlıq məramnamələrinin hazırlanmasına dair fikir mübadiləsi aparılıb.

# Aktyor teatrdan uzaq düşəndə...

## Əjdər Zeynalov: “Tarı köklə, qoy bir tərəfə. İfa olunmasa, öz-özünə kökdən düşəcək. Aktyor da elədir”

İnsan gənc yaşda radikal, orta yaşda liberal, yaşlılıqda isə mühafizəkar olur. Gənc yaşda ona görə radikal olur ki, gəncliyin keçmişi yox, amma önündə böyük bir gələcək var, onu əldə etmək istəyir. Orta yaşda isə həm yaşanmış keçmişi, həm də gələcək ümidi var, ona görə liberaldır. Yaşlılıqda isə gələcəyi yox, ancaq keçmişi var, onu qorumaq üçün mühafizəkar olmağa məcburdur...

Əcnəbi filosoflardan birinin rastıma çıxan fikridir. Bizim də bir atalar sözü var. Deyir, dərdli deyingən olar. Biz də bu misalı rəhbər tutaraq səhnədə, ekranda, elə söhbətdə də maraqlı aktyor və insan Əjdər Zeynalovla qovğalarda keçən ömrün 60-cı pilləsində həmsöhbət olduq.

*– Əjdər müəllim, necəsiniz?*

– Çox sağ olun dəvətinizə görə. Nəhayət ki, məni də yada saldınız (gülür).

*– Sizə kim dedi ki, unutmuşuq? Biz heç kimi unutmuruq.*

– Demək gözlədiniz ki, yaşlanım, 60 yaşım tamam olsun, sonra danışaq (gülürük).

*– Altmışı da elə intonasiya ilə deyirsiniz ki, elə bil qocalıb əldən düşmüsünüz. Belə də, lap tutaq ki, qocalıq da çatıb.*

– Məşhur tamaşada necə deyirdi? Hə, nolsun?

*– İltifat edim, keçək əsas məsələyə: əslində, sizə 60 yaş vermək olmur.*

– Elə mənə də bu lazım idi də (gülür).

*– Ömür yaşınızın 60-na çatmısınız. Bəs sənətdə qovğanın neçəsindəsiniz?*

– O hələ də davam edir. Bilmirəm, sənət deyəndə hansı istiqaməti nəzərdə tutursunuz. Amma kinoda, serialda, qısacası, efirlə bağlı hər şey qaydasındadır. Amma teatrdan uzun müddət haqsızlıq ucbatından uzaq qalmışam. 6 il 3 ay. Bilirsiniz, bu nədir? Aktyor üçün faciə!...

*– Sizin yaradıcılıq yolunuz tarixi elimizdən – Qərbi Azərbaycandakı qədim Uluxanlı mahalından başlayıb. Bəlkə bir az keçmişə qayıdaq?*

– Bizim Qaraqışlaq kəndi İrəvana yaxın idi, təxmini 6 kilometr aramız vardı. Kənddə mədəniyyət evi vardı. Ona teatra ziyadə bağlı Əli müəllim rəhbərlik edirdi. Vaxtaşırı, heç olmasa, ayda bir dəfə kəndin camaatından təşkil olunmuş həvəskarlarla birgə konsertlər, tamaşalar verilirdi. O zaman bir telekanal (Mərkəzi televiziya) vardı. Yerli erməni kanalına isə camaat baxmırdı. Yəni məlumat, əyləncə imkanlarımız çox qısıq idi. Kənd insanlarının kollektiv əyləncəsi məhz belə tədbirlər idi. Mən də uşaqlıqdan dərnək üzvü kimi tədbirlərdə, tamaşa və konsertlərdə fəal iştirak edirdim.

Yadımdadır, 9-cu sinifdə oxuduğum zamanlar idi. Dərnəyə Xalq teatrı statusu verildi. Bu elə çətinliklə başa gəldi ki, təsəvvür edə bilməzsiniz. Rəhmətlik Əli müəllim bu statusu sanki ermənilərin əlindən cırmaqlaşa-cırmaqlaşa aldı. Mədəniyyət evi tərkibindəki Xalq teatrı fəaliyyətini daha da genişləndirməyə başladı. Həvəskarların iştirakı ilə İsi Məlikzadənin “Gəl, qohum olaq” komediyası hazırlandı. Onu İrəvan Dövlət Azərbaycan Dram Teatrından gələn rejissor hazırlamışdı. Baş rollardan Ədaləti mən oynadım. Tamaşa çox bəyənildi. Teatrdan tamaşaya baxmaq üçün xeyli adam gəlmişdi. Elə oradaca məni teatra dəvət elədilər.

*– Beləcə, Ədalətlə başlanan, sonradan ədalətsizliklərlə yüklü bir sənət yoluna düşdünüz...*

– Özü də necə... Əslində, mənə o teatra getmək təklif olunanda çox sevindim. Amma sonra xeyli narahat oldum. Çox kasıb idik. Ailədə altı qardaş, bir bacı idik. Məndən böyüklər evlənib ailə-uşağa qarışmışdılar. Valideynlərimə baxmaq mənim borcum idi. Yaşlı, xəstə ata-anam vardı. Bakıya gəlmək, İncəsənət İnstitutunda oxumaq kimi bir arzumu onlara görə, tək qalmasınlar deyə ürəyimdə saxlamağa vadar oldum. Sözün qısası, İrəvan teatrında işləmək təklifini qəbul etdim. Gedən kimi də ştata götürdülər. Teatrın direktoru Hidayət Orucov idi. O, çox uzaqgörən adam idi. Teatrın savadlı kadrlara ehtiyacı var deyib, mənimlə birgə daha 6 gəncə Bakıya gedib ali təhsil almaq təklifi etdi.



Burada bir haşiyə çıxım ki, zəngin tarixi olan İrəvan teatrında çox yaxşı sənət mühiti vardı. 60-cı illərin sonlarında teatrın fəaliyyəti bərpa olunduqda Bakıdan böyük bir qrup ora gəlmişdi. Sonradan bir ismi qayıtsa da, teatr fədailəri, Xalq artistləri Vidadi Əliyev, Elmira İsmayılova orada qalaraq sonadək teatrı yaşatdılar. 1989-cu ildə, azərbaycanlıların Ermənistandan deportasiyasından sonra, teatrın burada fəaliyyətinin bərpa olunmasında da Vidadi müəllimin, Elmira xanımın çox böyük rolu oldu. Mən də onların yanında cavan bir aktyor kimi əlimdən gələni etdim. Yəni demək istəyirəm ki, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaşamasında rolumuz, əməyimiz böyük olub.

*– İrəvandan Bakıya oxumağa gələn o yeddi gəncin axırı necə oldu?*

– Hə, onu deyirdim axı, fikrim dağıldı. Biri rejissor olmaqla hamımız sənət təhsili üzrə oxumağa başladıq. Amma həyat elə gətirdi ki, sonra içlərindən yalnız mən teatrda, sənətdə qaldım.

*– Yəqin indi onları qınamırsınız...*

– Elədir. Artıq onlara haqq da qazandırıram. Bilirsiniz ki, o dövrdə də bu sənətdə pul yox idi. Quru maaşla yaşamaq isə zülm. İndi yenə serial, film, dublyaj var. Onda bircə quru maaşa baxırdı gənclər. Amma heç cür qopa bilmədim sənətdən. Nə edim? Bu da mənim taleyimdir.

> “Məni üç dəfə Akademik Milli Dram Teatrına dəvət ediblər. Uzun müddət o teatrda müqavilə ilə müxtəlif tamaşalarda oynamışam. Amma daimi işi istəmədim, İrəvan teatrını qoyub gedə bilmədim. İndi peşmanammı? Bilmirəm...”.

*– Qayıdaq yenə ora – İrəvana. Təhsil aldınız və qayıdanda artıq hər şey başqa idi.*

– Heç qayıda bildim ki?!. 1982-ci ildə qəbul olunduq və o zaman çıxan qərara əsasən, yaşı çatan hər kəs kimi mən də həqiqi hərbi xidmətə gedərək təhsilimi yarımçıq qoymalı oldum. 1985-ci ildə 2-ci kursdan təhsilimi davam etdirdim və 1988-ci ildə bitirdim. Hamının diplomu verildi, məndən başqa. Mən də qayıtmaq, doğma teatrda çalışmaq üçün tələsirəm. Amma uzanırdı hər şey. Mədəniyyət Nazirliyinə getdim. Dinlədilər, izah elədilər ki, çətindir vəziyyət, bir az gözlə, təyinatını ora almağa çalışarıq. Bir neçə aydan sonra gedəndə deyildi ki, artıq İrəvan teatrı bağlanıb, aktyorlar da pərən-pərən düşüb. Çox pis olmuşdum. Maddi və mənəvi qayğılar böhranında bağrım yarılırdı. Sözsüz ki, bütün İrəvan teatrının təəssübkeşləri kimi. Az vaxtdan sonra Vidadi müəllim, Elmira xanım və bu işdə bizə böyük kömək edən rəhmətlik Həsənağa Turabovun dəstəyi ilə 1989-cu ildə İrəvan teatrı Akademik Milli Dram Teatrının nəzdində teatr-studiya kimi fəaliyyətə başladı. Sonra teatrın statusu da bərpa olundu. Beləcə, mənim dəyişməz ünvanım İrəvan teatrı oldu. Uzun müddət burada çalışdım. Ta şərlənib uzaqlaşdırıldığım günədək. Amma mən inanıram, ümid edirəm ki, yenə ora, o yurd-yuvama çevrilən teatra qayıdacağam.

*– Maraqlıdır, oradan bir qisim aktyor – xüsusən də Qərbi Azərbaycandan olan sənət insanları uzaqlaşdılar. Səbəb nədir?*

– Bunun yeganə səbəbi idarəetmədir. Uzun söhbətdir.

*– Biz qısa yolu sınayaq və söhbətin məcrasını sizə doğru dəyişək...*

– Siz deyən olsun. Amma məqamı gəldi, deyim, yaddaşlarda bir də belə qalsın. Adətən qalmaqallar səhnə, sənət adamları ətrafında yaranır. Bizdə isə əksinə olub. Əslində, çox söz deyə bilərəm və demişəm də. Amma, deyəsən, bir az yorulmuşam...

Bir də, elə bilirsiniz, başqa teatrlara getmək imkanım olmayıb. Hələ o teatrda çalışanda məni üç dəfə Akademik Milli Dram Teatrına dəvət ediblər. Uzun müddət o teatrda müqavilə ilə müxtəlif tamaşalarda oynamışam. Orada son rolum da Elçinin “Sənətkarın taleyi” əsərində olub. 3-4 il orada çalışdım. Amma daimi işi istəmədim, İrəvan teatrını qoyub gedə bilmədim.

*– İndi peşmansınız?*

– Bilmirəm. Baxmayaraq ki, o teatrda potensiala uyğun imkanlar da çoxdur. Ən azı maddi təminat, fəxri ad almaq imkanı və s. Amma yox dedim. Səbəb də yenə İrəvan teatrı oldu. Peşəkar aktyorlar getsə, o məhv olar deyib, ən azı özümə cavabdeh şəxs olaraq qaldım. Axı hamımız getsəydik, o teatr dərnək səviyyəsində qalardı...

*– Sizi anlayıram. Təəssübünüz və bundan irəli gələn gileyiniz anlaşılandır. Amma başqa bir məqam da maraqlıdır: niyə yalnız siz? Niyə sizi narahat edən məqamlar sənət yoldaşlarınıza təsir etmədi?*

– Haqlısınız, tək qaldım. Yəqin lazım deyiləmmiş... Vicdanım qarşısında cavab verəcəm deyə, bir də burada deyim ki, mənim orada kimisə yıxmaq, ayağının altını qazmaq, rəhbər olmaq kimi bir istəyim heç vaxt olmayıb. Mənim and, inam, ümid yerim səhnədir, vəssalam! İşdə ola-ola işə gəlməmək barədə haqqımda verilən əmri divardan oxuyan aktyor kimi son rolumu o an oynadım və getdim. Mən qanunlara riayət edən insanam. Heç vaxt hansısa fərdə görə hamıdan küsmürəm, küsə də bilmərəm.

*– Bu ildən Sumqayıt Dövlət Dram Teatrında çalışırsınız. Amma bu qədər illər ərzində niyə dayandınız?*

– Düz üç il doğma teatra qayıtmaq üçün mübarizə apardım... Bu ilin yanvar ayından Sumqayıt teatrındayam. Amma, sözsüz ki, doğma teatrıma nə vaxtsa qayıtmaq ümidi, əzmi ilə. Sumqayıt teatrının çox yaxşı aktyor truppası, rejissor heyəti və yaradıcılığıma dəyər verən direktoru var. İnanıram ki, bu səhnədə maraqlı işlərim olacaq. Heyətin çoxunu tanıyıram. Xüsusən də baş rejissorumuz, Xalq artisti, tələbə dostum Firudin Məhərrəmov aktyor potensialımı bilir.

*– Kino, serial sahəsində ən çox tələb olunan aktyorlardansınız və bu illər ərzində, demək olar ki, işsiz qalmamısınız...*

– Teatrda işləməsən kökdən düşürsən. Tarı köklə, qoy bir tərəfə. İfa olunmasa, öz-özünə kökdən düşəcək. Aktyor da elədir. Bütün vərdişləri səhnədə formalaşır. Mənim üçün səhnə məbəddir.

*– Özünüzü ifadədə hansı tipaj, janr sizə daha yaxın olur?*

– Teatrda, demək olar ki, ancaq dramatik əsərlərdə, müsbət qəhrəmanları, baş rolları oynamışam. Amma kino sahəsində daha çox mənfi. Hərdən öz-özümə sual verirəm, hətta rejissorlardan da soruşuram ki, niyə məhz mənfi? Axı tamaşaçı məni söyür (gülür). Amma onu da bilirəm və peşəkarlardan eşidirəm ki, mənfi rollarıma rəğmən tamaşaçı qəbul edir, sevir. Onu da bilirəm ki, mənfi rol aktyorun bütün potensialını işə salır və onun sənət imkanlarını bərabər paylamağa imkan yaradır. Müsbət rol oynamaq elə də çətin deyil. Mənfi tipajda isə obrazın xarakterinə varmaq, onun hisslərini, vəziyyətini, bəraətini tamaşaçıya ötürmək lazımdır.

*– Sizinlə bir zamanda sənətdə olanların adının önündə fərqli titullar var. Yəqin bu kimi məsələlər sizi də incidir.*

– Düzü əvvəllər, daha çox cavan olanda belə şeylərə elə də fikir vermirdim. Amma son illər yaşadıqlarım mənə ciddi dərslər verdi və anladım ki, o adlar, o təqdimatlar çox vacibdir. İstedadım, rollarım, yəqin ki, zaman gələcək, öz dəyərini alacaq.

*– Sizin üçün rol seçmək bir imkandır, yoxsa fürsət?*

– İrəvan teatrında, demək olar ki, heç vaxt roldan imtina etməmişəm. Oynamaq, səhnədə olmaq üçün. Kinoda, serialda isə artıq seçirəm. Ssenariyə, rola, iş müddətinə baxıram. Amma onu da deyim ki, nə yaxşı ki, az da olsa, kino, seriallar var. Yoxsa adam özünüifadə üçün meydan tapmasa, dəli olar. Bu da aktyorun faciəsidir.

*– Bəzi seriallardakı məişət mövzusunun aşağı səviyyədə ifadəsi, sözsüz ki, seçim diktə edir. Bilmirəm, bu, sizdə necə alınır?*

– Haqlısınız. Amma roldan tez-tez imtina da edə bilmirsən. Düzdür, bəzən elə ssenari var ki, yox deməyə vadar olursan. Amma ailə, qayğılar, maddi tələbatlar adamı çox çətin seçim qarşısında qoyur bəzən. Mən də bu çətinlikləri yaşamışam. Amma onda da, elə indi də ən çox çəkilən aktyorlardanam. Demirəm ki, ehtiyacım yoxdur və ya olmayıb. Amma məcbur hiss etdiyim anda belə yenə də sənət prinsiplərimə uyğun olaraq işləyirəm. İndi, şükür, artıq uşaqlar da böyüyüb, məişət qayğılarım da ağır deyil. Qızım artıq təhsilini bitirib, işləyir. Oğlum Polşada magistr təhsilini davam etdirir, eyni zamanda böyük bir şirkətdə çalışır, bizə kömək edir.

*– Səhnədə sizi son olaraq tələbə rejissorun “Qoca kloun tələb olunur” tamaşasında gördüm. O əsər əksər teatrlarımızda qoyulub. Sözsüz ki, hər biri də başqa kədər yüklü.*

– Hə, mən daim gənclərə, istedadlı yeni nəslə inanıram və həmin gəncin təklifinə də sevərək hə dedim.

*– Onda bir az da sənət müəllimlərinizi xatırlayaq. Adətən tələbənin taleyi müəlliminə bənzəyir deyirlər...*

– Heç bu barədə düşünməmişdim, doğru sözmüş... Birinci kursda bizə gözəl müəllim və insan, bənzərsiz pedaqoq Nəsir Sadıqzadə dərs dedi. Sonra Böyükağa Kazımov və Məhəmməd Verdiyev. Gözəl, qayğısız, coşqun illər idi. Yaxşı mühit vardı.

*– Tənqidə münasibətiniz necədir? Bizim sənət mühitində tənqidə bir dözümsüzlük var.*

– Başqalarını bilmirəm, amma mən tənqidə çox açığam. Çünki tutarlı, qərəzsiz, peşəkar tənqid tərəqqinin açarıdır. Amma ümumən niyə dözümsüzlük var, onu bilmirəm. Yəqin hesab edirlər ki, tənqid çox olarsa, müəyyən məqamlarda fəxri titullar uzaq düşər (gülür).

*– Aktyor tərcümeyi-halınıza nəzər salsaq, İrəvan teatrında hansı rolunuz daha çox müzakirə olunub, səs-küyə səbəb olub?*

– Yenə aşığın yanan yerindən dediniz. Maneələr, aylarla məşqdən sonra bircə dəfə oynanılan, sonra arxivə atılan, yaxud kompozisiyalar, özfəaliyyət səviyyəli tamaşalarla necə yaddaqalan rol oynayıb, müzakirə obyekti olmaq olar ki? Bax, sənət söhbəti edəndə də dərd-azad gedib çıxır eyni nöqtəyə. Bir neçə il əvvəl Oruc Qurbanov teatrımızda M.F.Axundzadənin “Mürafiə vəkilləri” əsərini hazırlamışdı. Tamaşada Mərdanı oynayırdım. Maraqla qarşılandı, belə bir səpkidə rolumu görmədiklərini dedilər. Peşəkarlardan xeyli xoş fikir aldım.

*– O zaman yeni mövsümdə yeni rolları bir də Sumqayıt səhnəsindən görək.*

– Nə deyirəm ki, görək (gülür).

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi

**15 – 17 sentyabr**

### Azərbaycan

**15 sentyabr 1905** – Azərbaycanda kukla teatrının yaradıcısı, aktyor, rejissor Molla Ağa Bəbirli (1905 – 22.10.1970) Bakıda anadan olub. “O olmasın, bu olsun”, “Bir məhəllədən iki nəfər”, “Sehrli xalat” filmlərində çəkilib, Akademik Dram Teatrında çıxış edib.

**15 sentyabr 1918** – Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı – “Azərbaycan” qəzetinin ilk sayı çapdan çıxıb.

**15 sentyabr 2006** – Görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Zülfüqar oğlu Adıgözəlov (28.7.1935 – 2006) vəfat edib. Azərbaycan Bəstəkarlar İttifaqının sədri olub.

**15 sentyabr 2007** – Xalq rəssamı Elbəy Mirzə Həsən oğlu Rzaquliyev (17.6.1926 – 2007) vəfat edib. “Telefonçu qız”, “Arşın mal alan” (1965), “Gün keçdi”, “Arxadan vurulan zərbə” və s. filmlərin rəssamı olub.

**15 sentyabr 2021** – Əməkdar artist, tanınmış arfa ifaçısı Çiçək Məmmədhüseyn qızı Rzayeva (13.6.1944 – 2021) vəfat edib.

**15 sentyabr 2021** – Ukraynanın ikinci böyük şəhəri olan Xarkovda Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılış mərasimi keçirilib. Abidənin müəllifi həmvətənimiz, Ukraynanın Xalq rəssamı, heykəltaraş Katib Məmmədovdur.

**15 sentyabr 2022** – Əməkdar mədəniyyət işçisi, musiqi təşkilatçısı İldırım Əli-Nazir oğlu Qasımov (7.12.1933 – 2022) vəfat edib.

**15 sentyabr 2022** – Əməkdar elm xadimi, nizamişünas, tərcüməçi, mətnşünas, filologiya üzrə elmlər doktoru Xəlil Həmid oğlu Yusifli (17.7.1935 – 2022) vəfat edib.

**16 sentyabr 1909** – Azərbaycanın ilk kino aktrisalarından olan İzzət Mirzəağa qızı Orucova (1909 – 22.4.1983) Bakıda doğulub. “Sevil” (1929), “Almaz” (1936) filmlərində baş rollarda çəkilib. Sonralar tanınmış kimyaçı alim, Azərbaycan Elmlər Akademiyasının akademiki olub.

**16 sentyabr 1934** – Əməkdar incəsənət xadimi, pianoçu, professor Elmira Yusif qızı Səfərova (1934-1997) Bakıda anadan olub.

**16 sentyabr 1995** – Prezident Heydər Əliyev görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin anadan olmasının 110 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**16 sentyabr 2000** – Əməkdar incəsənət xadimi, rejissor Nazim Hüseynqulu oğlu Abbasov (14.12.1938 – 2000) vəfat edib. Bədii (“Dvorjakın melodiyası”), sənədli və televiziya filmlərinin rejissoru olub.

**16 sentyabr 2002** – Tanınmış aktyor Bahadur Atabala oğlu Əliyev (24.2.1933 – 2002) vəfat edib. “Ulduz”, “Böyük dayaq” və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**16 sentyabr 2014** – Prezident İlham Əliyev tanınmış şair, Dövlət mükafatı laureatı Rəfiq Zəka Xəndanın 75 illik yubileyi haqqında sərəncam imzalayıb.

**16 sentyabr 2021** – Əməkdar mədəniyyət işçisi, dirijor Nizami Tahir oğlu Məmmədov (21.9.1947 – 2021) vəfat edib.

**17 sentyabr 1946** – Xalq artisti, müğənni Səməd Səmədov (1946 – 24.7.2021) anadan olub.

**17 sentyabr 1950** – Əməkdar mədəniyyət işçisi, tanınmış xalça ustası Zəhra Gülbala qızı Əliyeva (1950 – 25.5.2023) Bakıda anadan olub.

**17 sentyabr 1956** – Rəssam, heykəltaraş Müslüm Ömər oğlu Eldarov (1956-2003) Bakıda doğulub. Bakı İncəsənət Mərkəzinin (“Yeni Gallery”) yaradıcılarından biri olub.

**17 sentyabr 2004** – Teatr rejissoru, Əməkdar incəsənət xadimi Məbud İbrahim oğlu İsmayılzadə (24.3.1927 – 2004) vəfat edib. Lənkəran Dram Teatrının bədii rəhbəri və direktoru olub.

**17 sentyabr 2013** – Parisdə, UNESCO-nun mənzil-qərargahında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettasının 100 illiyinə həsr edilmiş tədbirlər keçirilib.

**17 sentyabr 2014** – Xalq artisti, vokal ifaçısı Eldar Balağa oğlu Axundov (15.3.1949 – 2014) vəfat edib. Müdafiə Nazirliyi Nümunəvi Hərbi Orkestrinin solisti olub.

### Dünya

**15 sentyabr 1789** – Amerika yazıçısı Ceyms Fenimor Kuper (James Fenimore Cooper; 1789 – 14.9.1851) anadan olub. Tarixi və macəra romanlarının müəllifidir: “Casus”, “Dəniz qulduru”, “Losman”, “Sonuncu mogikan”, “Ləpirçi” və s.

**15 sentyabr 1890** – İngilis yazıçısı, detektiv əsərlərin müəllifi Aqata Kristi (Agatha Mary Clarissa; 1890 – 12.1.1976) anadan olub. Əsərləri: “Rocer Ekroydun qətli”, “Yarımçıq portret”, “Şərq ekspressində qətl”, “Nildə ölüm” və s.

**15 sentyabr 1894** – Fransız kinorejissoru, “Oskar” laureatı Jan Renaur (1894–1979) anadan olub. Filmləri: “Böyük illüziya”, “Marselyoza”, “Fransız kankanı” və s.

**15 sentyabr 1914** – Türk yazıçısı Orxan Kamal (Mehmet Raşit Öğütçü; 1914 – 2.6.1970) Adananın Ceyhan qəsəbəsində doğulub. “Baba evi”, “Cəmilə”, “Yad qızı”, “Qürbət quşları” kimi romanları, “Çörək davası”, “Arxa küçə” və s. hekayələri yazıçıya geniş oxucu rəğbəti qazandırıb.

**15 sentyabr 1925** – Rus aktyoru, SSRİ Xalq artisti Kirill Lavrov (1925-2007) anadan olub. Filmləri: “Dirilər və ölülər”, “Karamazov qardaşları”, “Odun ram edilməsi” və s.

**16 sentyabr 1462** – İtalyan filosofu Pyetro Pomponassi (Pietro Pomponazzi; 1462-1525) anadan olub.

**16 sentyabr 1888** – Finlandiya yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1939) laureatı Frans Emil Sillanpyya (Frans Eemil Sillanpaa; 1888-1964) anadan olub. Əsərləri: “Həyat və günəş”, “Adamlar yay gecəsində”, “Cavanlığında vəfat etmiş”.

**16 sentyabr 2016** – Məşhur türk kinoaktyoru, yazar Tarık Akan (Tarık Tahsin Üregül; 13.12.1949 – 2016) vəfat edib.

**17 sentyabr 1908** – Amerika yazıçısı, detektiv romanlar müəllifi Con Krizi (John Creasey; 1908-1973) anadan olub.

**17 sentyabr 1931** – İtalyan əsilli Amerika aktrisası, “Oskar” laureatı Enn Benkroft (Anne Bancroft – Anna Maria Louisa Italiano; 1931-2005) anadan olub. Filmləri: “Məzun”, ”Nazaretli İsa”, “Əsgər Ceyn” və s.

**17 sentyabr 1939** – Tanınmış rus aktyoru və rejissoru, Rusiyanın Xalq artisti Vladimir Valentinoviç Menşov (1939 – 5.7.2021) Bakıda anadan olub. Filmləri: “Moskva göz yaşlarına inanmır” (“Oskar” mükafatı, 1981), “Məhəbbət və göyərçinlər” (hər ikisində rejissor və aktyor) və s.

**Hazırladı: V.Orxan**

## “Güney Azərbaycan etnokulturoloji dəyərlər diskursunda”

Sentyabrın 10-da AMEA-nın Mərkəzi Elmi Kitabxanasında filologiya üzrə elmlər doktoru Esmira Fuadın “Güney Azərbaycan etnokulturoloji dəyərlər diskursunda” adlı kitabının təqdimatı olub.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin qrant layihəsi çərçivəsində nəşr olunan kitabda qədim Oğuz-türk yurdunun bölünməsinə gətirib çıxaran tarixi gerçəklikləri özündə əks etdirən “Kürəkçay”, “Gülüstan” və “Türkmənçay” sülh müqavilələri yer alıb. Güney Azərbaycanın tarixi abidələri vərəqlənir, adət-ənənələr, bayramların tarixi, bu günü, xalq həyatına nüfuz etməsi məsələləri ədəbi müstəviyə gətirilir.

Kitabda Güney Azərbaycan mətbəxinin özəllikləri də açıqlanır. Folklorunun, şifahi xalq ədəbiyyatının bir çox janrları örnəklərə söykənərək təhlil olunur, Təbriz folklor nümunələrinə Sürəyya xan Şapşalın baxış bucağından nəzər salınır. Güneydə nəsr, tərcümə ədəbiyyatı və yayım məsələlərinə də nəzər salınır.

# Paytaxtımız səkkizinci dəfə Formula 1 yarışlarına ev sahibliyi edir

əvvəli səh. 1-də

Fərqli texnoloji təcrübələri sevənlər üçün isə “Giant Helmet” çox maraqlı olacaq. Fanatlar nəhəng F1 dəbilqəsinin köməyi ilə virtual reallıqda öz sürücü dəbilqələrini dizayn edəcək və bu unikal təcrübəni sosial mediada paylaşa biləcəklər.

“Ninja əngəl zolağı” fiziki aktivlik axtaranlar üçün idealdır. Hər yaş üçün uyğun olan bu zolaqda fanatlar müxtəlif maneələri dəf edərək əylənəcəklər.

Formula 1 yarışlarının həyəcanı ilə sirkin möcüzəsi də bir araya gəlir. Akrobatlardan illüziya ustalarına qədər valehedici çıxışlarla dolu möhtəşəm sirk ab-havası yaşanacaq.

Bakı Şəhər Halqası kiçik qonaqları da unutmayıb. Bulvar ərazisində uşaqlar üçün xüsusi əyləncə nöqtələri mövcuddur. Bundan başqa, milli rəqslər, nağaraşoular, retro avtomobillərin sərgisi, müxtəlif fotozonalar, həmçinin kiçik konsertlər kimi əyləncələr də burada yer alacaq.

Günlük proqramlar axşam Bakı Kristal Zalında təşkil olunacaq dünya ulduzlarının konsertləri ilə davam edəcək. Sentyabrın 13-də dünyaşöhrətli aktyor və musiqi ulduzu Vill Smit öz unikal musiqi proqramı ilə səhnədə fanatları əyləndirəcək. Həmin axşam yarış həvəskarlarını Cənubi Afrika Respublikasından DJ və prodüser “Black Coffee”nin ritmik, enerjili performansı da gözləyir. Sentyabrın 14-də isə dünya musiqisinin parlaq ulduzu DJ Balvin Bakı səhnəsində avtoidman həvəskarlarına möhtəşəm gecə yaşadacaq.






***

Bu il Formula 1 Azərbaycan Qran-Prisini 300-ə yaxın yerli və xarici media nümayəndəsi işıqlandırır. Sentyabrın 11-də xarici media üçün tur təşkil edilib.

Mediatur UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş Qobustan Milli Tarix-Bədii Qoruğundan başlayıb. Qoruq ərazisində yerləşən muzeylə də tanış olan jurnalistlərə Azərbaycanın tarixi və qədim qayaüstü təsvirlər haqqında ətraflı məlumat verilib.




Palçıq Vulkanları Turizm Kompleksində davam edən turda xarici media nümayəndələri palçıq vulkanlarının xüsusiyyətləri və maketi ilə tanış olublar.

Onlara Azərbaycanın müxtəlif bölgələrindən toplanmış 80-ə yaxın nadir mineral haqqında məlumat verilib.

Mediatur İçərişəhərdə yekunlaşıb.

***

Qeyd edək ki, Bakıda ilk dəfə Formula 1 yarışları 2016-cı ildə keçirilib. Azərbaycan Qran-Prisinin yarış yolu (Bakı Şəhər Halqası) 6003 metrdir. Yarışçılar bu halqada ümumilikdə 51 dövrə (306,049 km) vururlar.

Formula 1-in 2024-cü il təqvimi Bəhreyn Qran-Prisi ilə (29 fevral – 2 mart) başlayıb və indiyədək 16 mərhələ arxada qalıb. Azərbaycan Qran-Prisi sayca 17-ci mərhələdir. İlin sonunadək daha yeddi mərhələ var. 2024-cü ilin Formula 1 təqvimi Əbu-Dabi Qran-Prisi (6–8 dekabr) ilə başa çatacaq.

# Əvəz Abdulla yeddi tamaşada Alfio olacaq

Almaniyanın qədim tarixə malik Manheym Opera Teatrı (Nationaltheater Mannheim) yeni mövsümün əvvəlində Lüdviqshafen şəhərindəki teatrında yeddi dəfə Pyetro Maskaninin "Kənd namusu" operasını təqdim edəcək.



Sentyabrın 19-dan oktyabrın 6-dək göstəriləcək tamaşalarda Alfio partiyasını Azərbaycanın Xalq artisti Əvəz Abdulla ifa edəcək.

Pfalzbau teatrında oynanılacaq tamaşanın quruluşçu rejissoru Roland Velte, musiqi rəhbəri və dirijoru Yanis Liyepinşdir.

**Gülcahan**

# 2500 yaşlı qızıl boyunbağı 42 ildən sonra Türkiyəyə qaytarılıb

Türkiyədən qaçaqmalçılıq yolu ilə aparılan və uzun illər ABŞ-nin Boston şəhərindəki İncəsənət Muzeyində sərgilənən Lidiya dövrünə (e.ə. XII-VI əsrlər) aid qızıl boyunbağı geri qaytarılıb.



Türkiyənin Bostondakı Baş Konsulluğunda təşkil edilən mərasimdə boyunbağı qardaş ölkənin rəsmilərinə təhvil verilib. Tədbirdə Türkiyənin baş konsulu Murat Uğurluoğlu, Türkiyə səfirliyinin Nyu-Yorkdakı mədəniyyət və tanıtma attaşesi Hilal Dəmirəl, Boston İncəsənət Muzeyinin rəhbərliyi iştirak ediblər.

Hilal Dəmirəl bildirib ki, boyunbağı 1982-ci ildə Manisanın Mintəpələr bölgəsindən ABŞ-yə aparılıb. 20 santimetr uzunluğu olan boyunbağı karneli daşlarından hazırlanmış nar formalı muncuqlardan ibarətdir. Qeyd olunub ki, Lidiya dövrü incəsənətinin xarakterik xüsusiyyətlərini daşıyan boyunbağı yaxşı qorunub saxlanılıb. Manisa bölgəsinin Mintəpələr nekropolu ərazisindən əldə edilmiş digər əsərlərə bənzəyir.

Qızıl boyunbağının bölgə üçün tarixi-mədəni əhəmiyyətinə toxunan H.Dəmirəl deyib: “Bu əsərin geri qaytarılması həm arxeoloji tədqiqatların inkişafı, həm də mədəni irsimizin qorunması baxımından mühüm addımdır”.

**Fariz**

# Kiçik beyni olanlar daha çox yaşayır?

İnsan beyninin böyüyən hissələrinin daha tez qocaldığı müəyyən edilib. Düsseldorf Universitetindən olan tədqiqatçılar bildirib ki, beynin ən sürətlə genişlənən hissələri mürəkkəb vəzifələrə cavabdehdir. Bu, həmin sahələrin niyə daha tez köhnəldiyini və daraldığını izah edə bilər. Ancaq insan beyninin daha böyük hissələrinin niyə daha sürətli kiçilməsini izah etmək üçün daha çox araşdırmaya ehtiyac var.



“Science Advances” jurnalında dərc edilən araşdırmada iştirak etməyən ekspertlər də hesab ediblər ki, nəticələr daha çox iştirakçı ilə dəstəklənməlidir. London Universitet Kollecindən antropoloq Aida Qomez-Robles deyib: “İnsanların beynində qocalmanın oxşar tədqiqatları çox vaxt minlərlə insanı əhatə edir. Nəticələr bu hissələrin bəzilərinə aiddir, lakin onların hamısına aid olub-olmadığını bilmirik. Həmin nəticələr qəti şəkildə təsdiqlənərsə, maraqlı bir vəziyyət ortaya çıxar – insanların sağqalma şansını artıran və daha uzun yaşamalarını təmin edən bölgələr ilk yaşlanan hissələrdir. Yaş irəlilədikcə ortaya çıxan bəzi problemlər təkamülün həm üstünlük, həm də mənfi cəhətlər gətirməsinin nəticəsi ola bilər”.

Bu arada kanadalı alimlər insanların səs qeydlərindən istifadə edərək yüksək qan təzyiqi – hipertoniyanı təsbit edə bilən süni intellektə əsaslanan üsul tapdıqlarını açıqlayıblar.

Kanadada “Klick Labs” tərəfindən aparılan araşdırmada iştirak edən 245 nəfərdən alimlərin hazırladığı mobil proqramda 2 həftə ərzində gündə 6 dəfə səslərini qeyd etmələri istənilib. Tədqiqatçılar yüzlərlə səs biomarkerini təhlil etmək üçün süni intellekt alqoritmlərindən istifadə ediblər. Bildirilib ki, mobil tətbiq hipertoniyanı qadınlarda 84 faizə, kişilərdə isə 77 faizə qədər dəqiqliklə müəyyən edir.

Tədqiqatın aparıcı müəllifi Yan Fossat bildirib: “Biz hipertoniyanı aşkarlamaq üçün daha əlçatan bir üsul kəşf etdik. Ümid edirik ki, texnika bu ümumi qlobal sağlamlıq probleminə daha tez müdaxilə etməyə imkan verəcək”.

# Ulduz sənətçi siyasətə qarışanda...

Məşhur amerikalı müğənni Teylor Svift (Taylor Swift) ABŞ-də davam edən prezident seçkiləri kampaniyasına əlavə gərginlik qatıb. Milyonlarla pərəstişkarı olan sənətçi siyasi simpatiyasını açıq bəyan etməklə seçkilərə mümkün təsiri ilə bağlı aylardır sürən fərziyyələrə o özü aydınlıq gətirib.



Teylor Svift demokratların namizədi Kamala Harrisə səs verəcəyi ilə bağlı sentyabrın 11-də paylaşım edib. Müğənninin respublikaçı namizəd Donald Tramp və Kamala Harris arasında ilk teledebatdan dərhal sonra belə açıqlama verməsi maraq doğurur. Bir çox ekspertlərə görə, teledebatda Harris Trampdan üstün olub.

Əslində, Teylor Sviftin demokratların tərəfində olduğu əvvəldən bəlli idi. İndi müşahidəçilər onun mövqeyini açıq bildirməsinin seçki yarışında necə rezonans doğuracağı barədə mülahizələr yürüdürlər. Hərçənd müğənni pərəstişkarlar ordusuna hələ bu barədə çağırış etməyib. Onun bu addımı atacağı təqdirdə Amerika cəmiyyətindəki Tramp tərəfdarları arasında xeyli pərəstişkar itirəcəyi, hətta bir çoxunun qəzəbinə tuş gələcəyi də yəqindir.

Ulduz sənətçinin açıqlamasına Trampın cavabı da gecikməyib. O deyib ki, Taylor Svift üçün demokratların namizədi Kamala Harrisi dəstəkləməsi ona baha başa gələ bilər. “Mən onun pərəstişkarı deyildim. Bildiyimə görə, o, həmişə demokratları dəstəkləyib və çox güman ki, musiqi biznesində bunun əvəzini ödəməli olacaq”, – deyə Tramp bildirib.

Bu arada amerikalı müğənni “The Eras Tour” konsertlərinin sonuncu – beşinci mərhələsinə hazırlaşır. 2023-cü ilin martında ABŞ-də start götürən “The Eras Tour”a ümumilikdə 152 konsert daxildir və bu, dünya musiqi və şou-biznes tarixində ən genişmiqyaslı konsert turudur. 2023-cü il 60 konsertdən əldə olunan gəlir 1 milyard dolları aşıb və Teylor Sviftin komandası bununla ona qədər dünya rekordçusu olmuş Elton Conu geridə qoyub. Müğənninin əsasən stadionlarda keçirilən konsertlərinə orta hesabla 50-60 min tamaşaçı gəlir.

2023-cü ilin yaz-payızında Şimali Amerika və Latın Amerikasında konsertlər verən Teylor Svift sonra turu bu ilin fevral-mart aylarında Asiya və Avstraliyada, yay aylarında isə Avropada davam etdirib. Turun sonuncu mərhələsi bu ilin oktyabr-dekabrında Şimali Amerikada olacaq.

Müğənninin dünya turunda yüzlərlə insan çalışır. “The Eras Tour” konsertlərinin onun komandasına ümumilikdə 2 milyard dollarıdək gəlir gətirəcəyi gözlənilir. Dünya üzrə zənginlərin varidatını hesablayan “Forbes”in məlumatına görə, 34 yaşlı Teylor Svift 2024-cü ildə “milyarderlər klubu”na daxil olub.

**V.Kamal**

# Tarixdə bu gün

## Olaylar, faktlar (14 – 17 sentyabr)



### Xronoqraf

### 106 il əvvəl...

**15 sentyabr 1918-ci ildə** Nuru paşanın komandanlığı altında Azərbaycan-türk (Osmanlı) hərbi qüvvələri – Qafqaz İslam Ordusu Bakı şəhərini “Sentrokaspi diktaturası” və daşnak tör-töküntülərindən təmizləyib. 1918-ci ilin aprel-iyul aylarında Bakı Şaumyanın başçılıq etdiyi “Bakı Kommunası”nın, avqustun 1-dən isə ingilislərin dəstəyi ilə qurulan eser-menşevik-daşnak (“Sentrokaspi”) hökumətinin nəzarətində idi. Qafqaz İslam Ordusunun Bakıya hücumu öncəsi ingilislər şəhəri tərk etmişdilər. Bakının azad olunması Azərbaycanın istiqlal tarixinin şanlı səhifəsi oldu.

**17 sentyabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti üç ay fəaliyyət göstərdiyi Gəncədən Bakıya köçüb. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Nazirlər Şurası Bakıda verdiyi ilk bəyanatda Cümhuriyyət hökumətinin milli, dini ayrı-seçkilik etmədən ölkənin bütün əhalisinin hüquqlarını qoruyacağını bəyan edib.

### 104 il əvvəl...



**14 sentyabr 1920-ci ildə** Cənubi Azərbaycan Milli Hökumətinin qurucusu Şeyx Məhəmməd Xiyabani Təbrizdə qətlə yetirilib. Xiyabaninin başçılığı ilə Təbriz üsyanı həmin ilin aprelində qələbə çalmış, iyunda Milli Hökumət qurulmuşdu. Sentyabrın 12-də irtica qüvvələrinin Təbrizə hücumu başlamışdı. Xiyabaninin qətli ilə Cənubi Azərbaycan türklərinin istiqlal mübarizəsinin daha bir səhifəsi qapandı.

### 85 il əvvəl...

**17 sentyabr 1939-cu ildə** sovet qoşunları Polşa sərhədini keçərək Qərbi Belarus və Qərbi Ukrayna torpaqları hesab edilən ərazilərin SSRİ-yə birləşdirilməsi üçün əməliyyata başlayıb. Bu barədə razılıq həmin il avqustun 23-də SSRİ ilə Almaniya arasında imzalanmış sazişdə (“Molotov-Ribbentrop paktı”) əldə olunmuşdu. SSRİ Polşanın şərqini, Almaniya isə qalan hissəsini işğal etdi.

### 64 il əvvəl...

**14 sentyabr 1960-cı ildə** Bağdadda keçirilən beynəlxalq konfransda Neft İxracatçısı Ölkələrin Təşkilatı – OPEC yaradılıb. Hazırda 13 ölkənin (İraq, İran, Venesuela, Qətər, Liviya, Nigeriya, BƏƏ, Səudiyyə Ərəbistanı və s.) daxil olduğu təşkilat dünyada neft istehsalının yarışına nəzarət edir. Mənzil-qərargahı Vyana (Avstriya) şəhərindədir.

### 46 il əvvəl...

**17 sentyabr 1978-ci ildə** Vaşinqtonda ABŞ Prezidenti Cimmi Karterin vasitəçiliyi ilə Misir-İsrail danışıqları sülh sazişi ilə yekunlaşıb. Prezident Ənvər Sədat və Baş nazir Menahem Beqinin imzaladığı sazişə əsasən, İsrail 1973-cü ildə işğal etdiyi Sinay yarımadasını azad edib. Fələstin məsələsi kənarda qaldığı üçün ərəb dövlətləri Misirin addımını satqınlıq kimi qiymətləndirdilər. 1981-ci ildə Ə.Sədat terror aktı nəticəsində öldürüldü.

### 35 il əvvəl...



**16 sentyabr 1989-cu ildə** Tbilisi-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusunun ermənilər tərəfindən partladılması nəticəsində 5 nəfər həlak olub, 25 nəfər yaralanıb.

### 33 il əvvəl...

**14 sentyabr 1991-ci ildə** Bakıda Azərbaycan Kommunist Partiyasının (KP) fövqəladə 33-cü qurultayı keçirilib. Qurultay Azərbaycan KP-nin özünü buraxması haqqında qərar qəbul edib. Partiyanın əmlakı respublika və yerli hakimiyyət orqanlarına verilib. “Avqust qiyamı”nın (19-21 avqust – Moskvada “QKÇP” dövlət çevrilişi cəhdi) iflasından sonra SSRİ-də kommunist hakimiyyətinə faktiki olaraq son qoyulmuşdu.

### 20 il əvvəl...

**15 sentyabr 2004-cü ildə** Azərbaycanda dərs ili ilk dəfə yeni tarixdə başlayıb. Ondan öncə dərs ili 1 sentyabrda başlayırdı. Prezident İlham Əliyevin müvafiq fərmanı (21 avqust 2004-cü il) ilə 15 sentyabr – “Bilik günü” elan edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2112
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641